www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 aprel 2016-cı il Cümə № 80 (6401) Qiyməti 60 qəpik

**Xəbər**

## ABŞ nəşri Azərbaycanı regionun ən zəngin ölkəsi elan etdi

yazısı səh.3-də

**Gündəm**

### İƏT-in zirvə toplantısında mühüm qərarlar verildi



**İlham Əliyev:** "Ermənistan danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır"

yazısı səh.5-də

### Ölkədə ərzaq tədarükü üçün ASC yaradıldı-hökumət nəyə hazırlaşır?

yazısı səh.10-da

### İsraildə səfirliyimizin açılıb-açılması müzakirələri-iki fərqli mövqe

yazısı səh.7-də

### Bakıda intihar üçün yerlərin açarları kimin əlindədir-şok təsbit

yazısı səh.13-də

### Ermənilərin anti-Rusiya mitinqi - İrəvanın və Moskvanın oyunu

yazısı səh.7-də

### İki baş nazir getdi, Rəsi-Zadə isə yenə qalır

yazısı səh.3-də

### Həcc ziyarətində ölənlərə görə kompensasiya veriləcək

yazısı səh.13-də

### AŞ PA məruzəçisi hakimiyyəti həbsdə qalan siyasiləri azad etməyə çağırıb

yazısı səh.3-də

### Aprel ayının mistikası- sovet işğalı, Qarabağda müharibə, terror...

yazısı səh.11-də

### Komitə sədrinin müavininin "dindarlaşma" fikrinə deputatlardan reaksiyalar

yazısı səh.6-da

### Bakıda yanan binaların 11 aydır sönməyən tüstüsü-istintaqdan nə xəbər?

yazısı səh.12-də

## Qarabağ münaqişəsi ətrafında yeni situasiya

# "İLİN SONUNADƏK 5 RAYON AZAD OLUNACAQ" - ŞOK İDDİA

Tərəflərə təqdim olunan məxfi sənədlərin bəzi detalları üzə çıxıb: Füzuli, Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları və Laçının 13 kəndi azad edilir; Kreml bölgədə təkbaşına söz sahibi olduğunu isbatlamaq istəyir; **ekspert:** "Ermənistan diqqəti yayındırmağa və danışıqları uzatmağa çalışır..."




yazısı səh.9-da

## 45 milyardlıq proje təhlükədə - TANAP və TAP dondurula bilər

"The Washington Times" yeni Qarabağ müharibəsinin Avropa energetik təhlükəsizliyini də sual altına alacağı haqda xəbərdarlıq elədi; nüfuzlu nəşr: "ABŞ Ermənistanı geri çəkilməyə məcbur etməli, Bakını dəstəkləmək üçün təcili və qətiyyətli addımlar atmalıdır..."

yazısı səh.10-da



### "İhlas" agentliyindən uzaqlaşdırılan jurnalist "Yeni Müsavat"a danışdı

yazısı səh.4-də



### Müflis olmuş Hafiz Məmmədov 5 milyon borc pul axtarır

yazısı səh.12-də



*Qüdrət Həsənquliyev:*

### "Napoleon deyirdi ki, müharibəni süngü ilə yox, qızılla udurlar"

yazısı səh.8-də

# "Prezidentin Cəmiloğlu və Çubarovla görüşü olmayıb"


Azər Qasımov

**Aprelin 14-də bəzi media orqanlarında İstanbulda Azərbaycan prezidenti İlham Əliyevin Krım tatarlarının liderləri Mustafa Cəmiloğlu və Refat Çubarovla görüşü ölması barədə məlumat yayıb.**

Bu məlumata münasibət bildirən Azərbaycan Prezidentinin mətbuat katibi Azər Qasımov APA-ya açıqlamasında deyib: "Bəli, bu gün İslam Əməkdaşlıq Təşkilatının Zirvə toplantısının sessiyasında fasilə zamanı Azərbaycan prezidenti çay içərkən Cəmiloğlu və Çubarov prezidentə yaxınlaşaraq özlərini təqdim ediblər. Beləliklə, bunu hər hansı görüş adlandırmaq olmaz".

# Təhsil Nazirliyi jurnalistlər üçün təlimlərə başladı



**Aprelin 14-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə nazirliklə əməkdaşlıq edən KİV-in nümayəndələri üçün təhsil sahəsinə dair maarifləndirici təlimə start verilib. Musavat.com xəbər verir ki, təlimdə televiziya kanalları, qəzetləri və xəbər agentliklərini təmsil edən 25 jurnalist iştirak edib.**

Təlim kurslarının əsas məqsədi təhsil sahəsində görülən işlərin ictimaiyyətə çatdırılması, maarifləndirmə tədbirlərinin aparılması, media ilə səmərəli əməkdaşlığın qurulmasıdır.

Təlimlərdə peşə etik qaydaları, müəllimin işə qəbulu və yerdəyişmə, müsabiqələrdə iştirak və fəxri adların verilməsi və digər mövzularda diskussiyalar keçirilib. Mövzular üzrə azərbaycanlı alim, Bakı Slavyan Universitetinin "Yeni media və kommunikasiya texnologiyaları" kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Aynur Bəşirli, nazirliyin İnsan resursları şöbəsinin aparıcı məsləhətçisi Sevinc Ağayeva, Təhsil İşçilərinin Peşəkar İnkişaf İnstitunun direktor müavini Nəzakət Mehdiyeva, Təhsil Nazirliyinin İnformasiya şöbəsinin müdiri Elnur Əliyev və digərləri çıxış edib.

Nazirlik rəsmisi Sevinc Ağayeva qeyd edib ki, ümumilikdə 25 989 müəllimdən 25 693 nəfəri (98,86%) diaqnostik qiymətləndirmə imtahanlarında iştirak edib. Onlardan 28 nəfəri imtahanda 100% nəticə göstərə bilib. 262 nəfər isə 10 faizdən aşağı nəticə göstərib və diaqnostik qiymətləndirmədən keçməmiş hesab olunub:

**"Elə müəllim var ki, 40 sualdan sadəcə birinə düzgün cavab verib. Şagirdləri bu cür müəllimlərə necə həvalə edək?"**

Nazirliyin rəsmisi qeyd edib ki, bu cür nəticə göstərən müəllimlər işindən kənarlaşdırılır. Həmçinin vurğulayıb ki, diaqnostik qiymətləndirmə imtahanlarında ən yaxşı nəticə ingilis dili və coğrafiya, ən zəif nəticə isə metodika bölməsi göstərib.

**Təhsil Nazirliyinin İnformasiya şöbəsinin müdiri Elnur Əliyev** isə qeyd edib ki, müəllimlərin imtahan nəticələri hər biri direktora ayrıca zərfdə verilib: **"Bununla da direktor müəllimləri arasındakı fərqi öyrənmiş olub. Hətta bir çox direktorlar qiymətləndirmədən sonra təşəkkür də ediblər. Çünki məktəbdə fironluq edən müəllimlər imtahandan sonra sakit kənara çəkilib. Nəticədə çox aşağı göstərici toplayan müəllimlərin bir qismi özləri ərizə yazıb işdən gediblər. Qiymətləndirmədən sonra əmək haqqı fərqini gördükdən sonra bölgə müəllimləri də qiymətləndirilmə keçirilməsi üçün müraciət ediblər".**

Təhsil Nazirliyinin Dərslik və Nəşriyyat şöbəsinin aparıcı məsləhətçisi Vüsalə Həsənova müxtəlif dillərdə tədris olunan dərsliklərdən söz açıb:

"Təkcə rus dilində deyil, həmçinin gürcü dilində də dərsliklərimiz var. Xüsusən Qaxda bu 68 təşkil edir, ən az isə Balakəndədir. Ümumilikdə isə 10 belə məktəbimiz var. Gürcüstanla Azərbaycan arasındakı mövcud razılaşmaya əsasən Gürcüstandakı Azərbaycan dilində olan məktəblər Azərbaycan dili və ədəbiyyatı dərslikləri ilə pulsuz olaraq təmin olunur".

Qeyd edək ki, üç gün davam edəcək təlimin sonunda jurnalistlərə sertifikatlar veriləcək.

❑ Xalìdə GƏRAY

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur

# XİN aprelin 2-də hücuma keçən tərəfin Ermənistan olduğunu sübut edən detalları açıqlayıb

**Dağlıq Qarabağda son hərbi əməliyyatların bilavasitə Ermənistan tərəfindən başladıldığını sübut edən dəlillər Azərbaycan Müdafiə Nazirliyi tərəfindən müfəssəl şəkildə təqdim olunub".**




Bunu APA-ya açıqlamasında **Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev** Ermənistanın 2 aprel tarixindən etibarən başlanan hərbi əməliyyatlara görə məsuliyyəti Azərbaycanın üzərinə atmasına münasibət bildirərkən deyib. H. Hacıyev bır sıra məqamlara toxunaraq bunu əsaslandırıb: "Birincisi, 2015-ci ilin əvvəllərindən etibarən Ermənistanın hərbi doktrinasında əsaslı dəyişikliklərin edilməsi prosesi başlamışdı. Ermənistan müdafiə nazirinin müavini David Tonoyan bu ilin fevralında KİV-ə verdiyi açıqlamada ölkəsinin "statik müdafiə" konsepsiyasından "deterrence" (daşındırmaq və ya çəkindirmək) adlanan hücum xarakterli hərbi doktrinaya keçdiyini bildirmişdi. O əlavə etmişdi ki, Azərbaycanın malik olduğu atəş vasitələrinin fonunda hazırda işğal altında olan ərazilərin təhlükəsizliyini təmin etmək mümkün deyil və ona görə də Ermənistan yeni ərazilər işğal etməklə Azərbaycanı "çəkindirməli" və mövcud işğal olunmuş ərazilər ətrafında "təhlükəsizlik zonası"nı genişləndirməlidir. Hərbi terminologiya dili ilə yanaşsaq, "deterrence" doktrinası əsasən önləyici hücumları nəzərdə tutur ki, 2 aprel tarixində Ermənistan silahlı qüvvələri uğursuz şəkildə buna cəhd etdi. Hərbi doktrinanın hücum xəttinə köklənməsi çox ciddi məqamdır və müvafiq dövlətlər buna xüsusi diqqət yetirməlidirlər".

H. Hacıyevin sözlərinə görə, bununla Ermənistanın 1993-cü ildə reallaşdıra bilmədiyi hərbi avantüranın yenidən icrasını nəzərdə tutduğu istisna deyil. Hələ o zaman Ermənistan Tərtər və Bərdəni işğal etmək və Yevlax yoluna çıxmağı qarşısına məqsəd qoymuşdu.

**Hücumlara Ermənistanın başlamasına ikinci sübut kimi XİN rəsmisi onu qeyd edib ki, 2 aprel tarixindən hələ əvvəl qoşunların təmas xətti boyunca Ermənistan silahlı qüvvələrinin kütləvi konsentrasiyası aparılıb:** "İşğal olunmuş ərazilərdəki Ermənistan qoşunlarına əlavə olaraq, Ermənistanın içərisindəki hərbi hissələrdən əlavə qoşun birləşmələri işğal olunmuş ərazilərə göndərilib. Qoşunların kütləvi konsentrasiyası, arxa təminat və rezerv hissələrin yaradılması və logistik planlaşdırma hərbi əməliyyatlara başlamağın ən bariz nümunəsidir. Ermənistanın onlarla ağır texnikası məhv edilib. Sual olunur: əgər plan hücum deyilsə, adi vaxtda ön xətdə bu qədər texnikanın nə işi var? Əminik ki, müşahidə peyk imkanları olan dövlətlər Ermənistan qoşunlarının konsentrasiyasını görməmiş deyillər".

**H.Hacıyev qeyd edib ki, hərbi əməliyyata başlamazdan əvvəl qarşı tərəfin canlı qüvvə və texnikasını sıradan çıxarmaq və güclü psixoloji təsir yaratmaq üçün artilleriya hücumları həyata keçirilir:** "Aprelin 1-dən 2-nə keçən gecə qoşunların bütün təmas xətti boyunca Azərbaycan ordusunun mövqeləri və ona çox yaxın yerləşən mülki əhali və obyektlər ağır artilleriyadan intensiv atəşə tutulub. Ermənistan mülki Azərbaycan əhalisini hədəfə almaqla, Xocalı əməliyyatının ssenarisinə uyğun qırğın törətmək, təşviş və xaos yaratmaq kimi məqsəd də güdürdü. Nəzərə almaq lazımdır ki, Ermənistanın indiki müdafiə naziri və siyasi rəhbərliyində olan şəxslər Xocalı əməliyyatını planlaşdıran və icra edənlərdir".

**XİN mətbuat katibinin sözlərinə görə, Ermənistan tərəfinin daha çox itki verməsi bir tərəfdən Azərbaycan ordusunun peşəkarlığının göstəricisi olduğu halda, digər tərəfdən, Ermənistanın hücumda olmasının göstəricisidir:** "Sadə məntiq budur ki, hücumda olan silahlı qüvvələr daha çox itki verir. Azərbaycan ordusu yüksək peşəkarlıq və yalnız birinci eşelondakı məhdud qüvvələrlə qarşı tərəfin həmləsinin qarşısını alıb və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün atəş məntəqələrini susdurub və bu təyinatla istifadə edilən yüksəklikləri işğaldan azad edib. Ermənistanın cəzasızlıq sindromu Azərbaycan ordusu tərəfindən sındırıldı və rəsmi İrəvan atəşkəsə vadar edildi. Ona görə də 2-5 aprel tarixlərində qoşunların təmas xəttində yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür. Bu hərbi avantüranın və Ermənistanın ordusunun itkilərinin məsuliyyətini Ermənistan xalqı indiki kriminal rejimdən tələb etməlidir".

# SOCAR-ın DESFA-dakı payı 41%-dək azala bilər

**Yunanıstanın qazpaylayıcı şirkəti olan DESFA-nın SOCAR-a məxsus 66%-lik səhm paketi 41%-dək azala bilər.**




"APA-Economics" xəbər verir ki, bu barədə "İnterfax" Yunanıstan mətbuatına istinadən məlumat verib.

Hazırda Avropanın müvafiq qurumları SOCAR-ın DESFA-dan əldə etdiyi 66%-lik səhmlərin 17%-nin Avropadan olan üçüncü şirkətə satılması məsələsinə baxır. Bu, SOCAR-ın DESFA-dan əldə etdiyi 66%-lik payın 49%-ə qədər azaldılmasına imkan verəcək.

Yunan KİV-i yazır ki, üçüncü şirkətə satılacaq səhm payı 17% deyil, 25% ola bilər: "Bu halda SOCAR-ın DESFA-dakı payı 41% olacaq. Beləliklə, Yunanıstan hökuməti DESFA-nın ikinci ən iri səhmdarı olacaq".

Xatırladaq ki, bundan öncə SOCAR-ın bu ilin sonuna qədər əldə etdiyi səhmlərin 66%-nin 17%-ni üçüncü tərəfə satacağı ilə bağlı razılığa gəlinəcəyi barədə məlumatlar verilib.



# Elxan Süleymanov: "100 min səs tələbini keçmək bizim üçün uğurdur, amma..."

**Aprelin 14-də Bakı Dövlət Universitetində Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" adlı petisiya layihəsi ilə bağlı tədbir keçirilib. Rektor, akademik Abel Məhərrəmov bildirib ki, aprelin 6-da Ağ Ev Administrasiyasının internet resursunda yerləşdirilən petisiya 100 mindən artıq imza toplayıb. (Artıq imzaların sayı 125 minə yaxındır-red.)**

Petisiyada AŞ PA-nın 2085 (2016) saylı qətnaməsində vurğulanan Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dövləti tərəfindən işğal edilməsi, Ermənistanın Azərbaycana qarşı qəsdən törətdiyi ekoloji böhranın ekoloji təcavüz olması faktı, Ermənistan silahlı qüvvələrinin işğal bölgəsindən dərhal geri çəkilməsi tələbi, Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Sərsəng su anbarının hazırkı durumunun humanitar fəlakətlə nəticələnə biləcəyi xəbərdarlığı diqqətə çatdırılır. Həmçinin Obama Administrasiyasına AŞ PA-nın 2085 (2016) saylı qətnaməsini dəstəkləməsi, Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın azad edilməsinə və bölgədə humanitar fəlakətin qarşısının alınmasına yardım olunması üçün çağırış edilir.

**AVCİYA-nın prezidenti, millət vəkili Elxan Süleymanov çıxışında qeyd edib ki, qısa müddət ərzində 100 min nəfərdən artıq insanın petisiyaya səs verməsi, onun bu qədər geniş əks-səda doğurması insanların ölkəmizin gələcəyinə görə məsuliyyət daşıdıqlarının aydın təzahürüdür:** "Əlbəttə, prosedur qayda kimi 100 min səs tələbini keçmək bizim üçün uğurdur, amma bizim vətəndaşlar fəal olmalı, bir neçə yüz min səs toplamalıyıq. Səsvermə mayın 6-dək davam edəcək və Obama administrasiyası bundan sonra müvafiq araşdırmaya başlayacaq".

Səsvermə prosesinə aid videoçarx nümayiş etdirildikdən sonra "ELS" Müstəqil Araşdırmalar Mərkəzinin direktoru İradə Yaqubova iştirakçıları petisiya qaydaları ilə tanış edib.

Sonda BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Daşqın Qənbərov çıxış edib. Bildirib ki, universitet tələbələri petisiyanın ilk günündən aktiv iştirakları ilə diqqət çəkiblər və bu günə kimi 14 min BDU tələbəsi səsvermədə iştirak edib.

Qeyd edək ki, Ağ Evin saytında açılmış petisiyaya https://petitions.whitehouse.gov/petition/establish-justice-and-prevent-great-catastrophe linkinə daxil olmaqla səs vermək mümkündür.

❑ SEVİNC


Artur Rəsi-Zadə

# İki baş nazir getdi, Rəsi-Zadə isə yenə qalır...

## Qubad İbadoğlu: "Temir Sariyev öz sahəsini bilən peşəkar adam idi"

**Bir neçə gün əvvəl Qırğızıstanın baş naziri Temir Sariyev istefaya gedib. Bu barədə o, Nazirlər Kabinetinin növbədənkənar iclasında deyib. "Hökumət tərəfindən qəbul edilən bütün qərarlar qanuni olub və dövlətin maraqlarına cavab verib. Mən heç vaxt geriyə çəkilmirəm, bu, mənim xarakterimdə yoxdur. Öz vəzifəmdən istefa verməyə hazıram, lakin sona qədər sübut edəcəyəm ki, mən vicdanla çalışmışam və heç vaxt çirkin siyasi intriqalarla əlaqəm olmayıb.**

Mənim üçün dövlətin maraqları hər şeydən üstündür, bu prinsipə həmişə əməl edəcəm və bütün əsassız ittihamları təkzib edəcəm" deyə, T.Sarıyev söyləyib. Qeyd edək ki, bir neçə gün əvvəl nəqliyyat və kommunikasiya naziri Arqınbek Malabayev baş nazirin ətrafını Balıkçı-Korumdu yolunun tenderində Çin şirkətlərinin maraqlarını qorumaqda ittiham etmişdi. Məsələnin araşdırılması üçün yaradılan xüsusi parlament komissiyası 13 apreldə parlamentin baş nazirə etimadsızlıq göstərməsi barədə tövsiyə verib. Baş nazir isə parlament komissiyasının iclasının qapalı keçirildiyini və qəbul edilən qərarın ədalətli olmadığını bildirib.

Qeyd edək ki, bir müddət əvvəl Ukraynanın baş naziri Arseni Yatsenyuk da istefa verib. Beləliklə, keçmiş sovetlər birliyindən ard-arda iki baş nazir istefaya gedib. Azərbaycanın 81 yaşlı baş naziri Artur Rəsi-Zadə isə hələ də kürsüsündə qalır.

**Bir müddət əvvəl Qırğızıstanda ekspert kimi çalışan Qubad İbadoğlu Temir Sariyevi şəxsən tanıyır. O, istefaya gedən naziri "Yeni Müsavat"a peşəkar kimi dəyərləndirib. Ekspert məsələ ilə bağlı bildirib ki, Qırğızıstanda fəaliyyət göstərdiyi dövrdə, 2014-cü ildə Temir Sariyev iqtisadiyyat naziri idi:** "Biz də birbaşa İqtisadiyyat və Maliyyə nazirlikləri ilə işləyirdik. O zaman müəyyən məsələlərlə bağlı təmaslarımız olmuşdu. Müzakirələr aparılmışdı. Amma eyni zamanda Gürcüstan hökumətinin nümayəndələri ilə bir neçə tədbir keçirmişdik. Baş nazir olandan sonra təmasım olmamışdı. Amma baş nazir olandan sonra onun komandası ilə görüşmüşdük. Öz sahəsini bilən peşəkar adam idi. Qırğızıstan vəzifədə olan adamlara daha tələbkardır. Həqiqətən Qırğızıstanda hamı korrupsioner axtarır, parlament də, media da, vətəndaş cəmiyyəti də. Ona qarşı olan ittihamlar da son nəticədə qərar verməsi üçün əsaslar yaratdı. Amma baş nazir həm də Qırğızıstanın növbəti dövr üçün prezidentiyinə əsas namizədlərdən biri hesab olunurdu. Çünki Qırğızıstanda prezident bir dəfə yeddi illik seçilmək hüququna malikdir. Növbəti seçkilər 2017-ci ildə olmalıdır. Demək olar ki, Temir Sariyev növbəti prezident seçkilərində real namizəd sayılırdı. Mənə elə gəlir ki, onun istefasının həmin o prezident seçkiləri ilə bağlılığı var".


Temir Sariyev


Arseni Yatsenyuk

**Azərbaycan və Qırğızıstan baş nazirlərinin müqayisəsinə gəldikdə isə Q.İbadoğlu bu iki şəxsin müqayisəolunmaz dərəcədə fərqli olduğunu vurğuladı:** "Ümumiyyətlə, müqayisəyə gəlməyən bir şeydir. Bizdə baş nazir nominal baş nazirdir, onlarda isə real baş nazirdir. Çünki gerçəkdə Qırğızıstanda prezidentin səlahiyyəti bizdəki qədər deyil, əsas hakimiyyət parlamentdə və baş nazirlik institutundadır. Demək olar ki, baş nazir kifayət qədər nüfuzlu şəxs olub və Qırğızıstanda həm də bu baş nazirin təqdimatı, eyni zamanda təsdiqi parlament vasitəsilə aparılır. Düzdür, bizdə də bu var. Amma bu dərəcədə əhəmiyyət kəsb etmir. Amma Qırğızıstanda baş nazir təqdimatı ətrafında çox ciddi müzakirələr gedir. Temur Sariyev kifayət qədər təsir qüvvəsinə malik olan şəxs idi. Çünki o, Sosial Demokrat Partiyasının dəstəklədiyi namizəddir. Düşünürəm ki, onlar arasında çox böyük fərqlər var. Bizim baş nazirlə onu müqayisə etmək həm ölkədəki struktur mərhələsinə görə, həm də hakimiyyət bölgüsünə görə uyğun gəlmir. Qırğızıstanda bir fərq də var ki, baş nazirlər tez-tez dəyişir. Mən 2014-cü ildə Qırğızıstanda olanda o, iqtisadiyyat naziri idi. Sonra baş nazir təyin etdilər. Artıq 2016-cı ildə yeni baş nazirdən söhbət gedir. Mən sizə deyim ki, 2013-cü ildə orada olanda baş nazir başqa şəxs idi. Mən Qırğızıstanda işləməyə başlayandan o, ikinci baş nazir olub ki, əməkdaşlıq etmişəm. Artıq 2013-cü ildən indiyə qədər ölkəyə dördüncü baş nazir təyin olunub". Qeyd edək ki, Q.İbadoğlu Qırğızıstanda fəaliyyətə 2013-cü ildən başlayıb. Bu, Qırğızıstanda müşavirlik işi olub. Hökumətə dəstək layihəsi çərçivəsində o, BMT-nin xətti ilə beynəxlalq ekspert məsləhətçi olaraq bu prosesə cəlb edilmişdi.

❑ **Röya RƏFİYEVA**

# AŞ PA məruzəçisi hakimiyyəti həbsdə qalan siyasiləri azad etməyə çağırıb

## Stefan Şennak Bakı səfərində həbsdə olan jurnalistlə görüşüb; **Səidə Qocamanlı:** "Siyahımızda olan 22 nəfərlik məhbusdan artıq 18-i azadlığa çıxıb"


Stefan Şennak

**Aprelin 6-dan 8-nə qədər AŞ PA-nın Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennak Azərbaycanda səfərdə olub. O, Azərbaycan prezidenti, parlamentin spikeri, Konstitusiya Məhkəməsinin sədri, baş prokuror, ombudsman, ədliyyə naziri, Mərkəzi Seçki Komissiyasının sədri və vətəndaş cəmiyyətinin təmsilçiləri ilə görüşlər keçirib.**

Şennak həbsxanada araşdırmaçı jurnalist Xədicə İsmayılla, eləcə də yaxınlarda azadlığa buraxılan İntiqam Əliyev, Tofiq Yaqublu, Rəşadət Axundov, Leyla və Arif Yunuslarla da görüşüb.

Avropa Şurasının həmməruzəçisi səfərinin yekunları ilə bağlı bəyanat yayıb. Bəyanatda Şennak ölkəmizdə keçirdiyi görüşlər barədə geniş məlumat verərək, Azərbaycan-Ermənistan arasında əldə olunan son atəşkəs qərarını və ötən ay bir neçə siyasi məhbusun azad edilməsini alqışlayıb. O, həmçinin Azərbaycanı Avropa Şurası qarşısındakı öhdəliklərini tam yerinə yetirməyə, siyasi məhbusları azad etməyə və QHT-lərin fəaliyyəti yolunda maneələri aradan qaldırmağa çağırıb.

Həmməruzəçinin X.İsmayılla görüşü və siyasi məhbusların azad edilməsi, eləcə də QHT-lərin fəaliyyətinə olan maneələrin aradan qaldırılması ilə bağlı fikirləri geniş müzakirələrə səbəb olub. Onun əsas gündəm olan fikirləri bunlardır: **"Mən hələ də həbsdə olan fəalların məsələsini hakimiyyətlə müzakirə etdim və ölkədə baş verən son hadisələr belə ümid etməyə əsas verir ki, tezliklə yenə azadlığa buraxılmalar olacaq".**

Şennakın həbsdə qalan digər siyasilərin tezliklə azad olunacaqlarının anonsunu verməsi maraqla qarşılanıb. Doğrudur, son günlər, xüsusilə hüquq müdafiəçisi İntiqam Əliyevin Ali Məhkəmədən azad edilməsindən sonra REAL sədri İlqar Məmmədovun və Xədicə İsmayılın azad ediləcəkləri ilə bağlı ictimaiyyət arasında fikirlər dolaşırdı. Buna səbəb hər iki siyasinin qarşıdakı günlərdə məhkəmələrinin olacağıdır. İ. Məmmədovun apelyasiya, xanım məhbusun kasasiya şikayətləri üzrə məhkəmə prosesləri olacaq...

Hazırda həbsdə digər siyasi fəallar da var. Onlardan Müsavat başqanının müavini Fərəc Kərimlini, NİDA-çı gənclər-Əbdül Əbilov və İlkin Rüstəmzadəni, AXCP üzvlərini, sabiq səhiyyə naziri Əli İnsanovu və başqalarını qeyd edə bilərik. Şennakın çağırışlarında güman ki, adlarını çəkdiyimiz siyasilər nəzərdə tutulur.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı yeni həmməruzəçi ilə keçirdikləri görüşlə bağlı bunları dedi:** "Onunla görüşümüzdə müəyyən məsələləri gündəmə gətirdik. Siyahımızda olan məhbuslardan 16 nəfərinin azadlığa buraxılmasını AŞ PA həmməruzəçisi alqışladı. Bunu müsbət hal kimi qeyd etdi. O, İlqar Məmmədov və Xədicə İsmayılın azadlığa buraxılacağına ümid etdiyini söylədi. QHT-lərlə bağlı məsələlərdə mürəkkəb məqamlar çoxdur. Fəaliyyətə olan maneələr aradan götürülməlidir. Həmməruzəçinin iki problemi birdən gündəmə gətirməsi təbii haldır. Ölkəmiz Avropa Şurasına üzv olanda üzərinə öhdəliklər götürüb. AŞ PA-nın təyin etdiyi həmməruzəçinin əsas vəzifələrindən biri həmin öhdəliklərin yerinə yetirilməsi üçün çalışmasıdır. Onun istənilən məhbusla görüşməsi hüququdur. Buna hökumət özü şərait yaradır. Bu baxımdan Xədicə İsmayılla görüşü normaldır. Ümid edirəm ki, İlqar Məmmədov və Xədicə İsmayıl yaxın günlərdə məhkəmə yolu ilə azadlığa buraxılacaqlar. Bu çox vacibdir. Siyahımızda olan 22 nəfərlik siyasi məhbusdan artıq 18-i azadlığa çıxıb. Düzdür, onların içərisində şərti azad olunanlar da var. Onların vəkilləri bu işlə məşğul olurlar. Siyahımızda qalan 4 nəfərlə bağlı da işlərimiz davam edir. Onlardan ikisi İlqar Məmmədov və Xədicə İsmayıldır. Onu da deyim ki, biz həbsdə olan AXCP üzvləri ilə bağlı fəaliyyətimizi davam etdiririk. Onların azad edilmələri üçün əlimizdən gələni edəcəyik".

**REAL sədri İ.Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova Şennakın bütün siyasi məhbusların azad edilməsi ilə bağlı çağırışının olduğunu qeyd etdi:** "İlqarın və Xədicə İsmayılın azad ediləcəyi ilə bağlı mətbuatda çoxsaylı xəbərlər dərc olunur. Amma bu yazıların İlqar və Xədicə xanımın azad olunmasına nə qədər kömək edəcəyini deyə bilmərəm. Səbirli olub, zamanı gözləyək. İlqarın hazırda vəziyyəti yaxşıdır, əhval-ruhiyyəsi yerindədir".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycan regionun ən zəngin ölkəsidir

**ABŞ-ın nüfuzlu "Global Finance Magazine" nəşri dünyada ən zəngin ölkələrin reytinqini tərtib edib.**

Siyahıya dünyanın 185 ölkəsi daxil edilib.

Dünyanın ən zəngin ölkəsi adına Qətər layiq görülüb. Bu ölkədə adambaşına düşən ÜDM 146,011 min ABŞ dolları təşkil edir. İkinci sırada Lüksemburq (94,167 min dollar), üçüncü yerdə isə Sinqapur (84,821 min dollar) qərarlaşıb.

Azərbaycan reytinq sıralamasında 64-cü yeri tutub. Ölkəmizdə adambaşına düşən



ÜDM 18,913 min dollara bərabərdir. Region ölkələrindən Gürcüstan 113-cü (8,222 min dollar), Ermənistan isə 116-cı (7,748 min dollar) yerdə qərarlaşıb.

Reytinqdə Rusiya 51-ci (25,350 min dollar), Türkiyə 62-ci (20,299 min dollar), İran isə 72-ci (16,918 min dollar) pillədə yer alıb.

Qeyd edək ki, siyahı Ümumdünya Bankı və Beynəlxalq Valyuta Fondunun məlumatları əsasında tərtib edilib. Nəşr reytinqi tərtib edərkən nisbi yaşayış dəyəri və inflyasiya səviyyəsinin nəzərə alındığı ölkələrdə adambaşına düşən alıcılıq qabiliyyəti paritetini əsas tutub.

YENİ MÜSAVAT
N 80 (6401) 15 aprel 2016

# "İhlas" agentliyindən uzaqlaşdırılan jurnalist "Yeni Müsavat"a danışdı

## "İşdən çıxarılmağımla Rusiya ilə Türkiyə barışacaqlarsa, bundan şad olaram"

**Türkiyənin "İhlas" xəbər agentliyinin Moskva müxbiri, Qarabağ cəbhəsində baş verən hadisələrlə bağlı Moskva televiziyalarında Azərbaycanın mövqeyini müdafiə edən jurnalist Fuad Abbasov müsavat.com saytına geniş müsahibə verib. Əməkdaşımızla söhbətində F.Abbasov aprelin 13-də işindən azad edilməsi, eləcə də bu proseslərin pərdəarxasından danışıb.**

*Həmkarımız öncə "İhlas" rəhbərliyinin bu qərarının ona necə təsir bağışlamasına toxunub.*

- Bu, mənim üçün gözlənilən idi. Amma belə bir münaqişədə yox. Çox adamdan xəbərdarlıq alırdım ki, gec-tez bu fəaliyyətinə görə belə qərar alına bilər. Burdakı məsləkdaşlar, internetdəki dostlar daha çox bu cür xəbərdarlıq edirdi. Belə bir fəaliyyət göstərməyimin işimə təsir edəcəyini söyləyənlər olurdu. Amma Türkiyə və Azərbaycan üçün belə bir vacib məqamda, Türkiyə, Azərbaycan adına, bu ölkələrin səsini duyuracaq başqa bir adamın Rusiya televiziyalarına dəvət edilmədiyi bir məqamda belə bir şey gözləmirdim. Rusiya televiziyaları Azərbaycandan olan ziyalılardan, mütəxəssislərdən, jurnalistlərdən uzaq durmağa çalışırdılar. Mən də azərbaycanlı yox, türk jurnalist olaraq bu verilişlərə dəvət edilirdim. Amma azərbaycanlı olduğum üçün mümkün mərtəbədə Türkiyəni yox, Azərbaycanı təmsil etməyə çalışırdım.

***- Fuad bəy, agentlik işdən çıxarılma ilə bağlı verilən qərarı sizə necə açıqladı? Rəsmi məktubda nələr yazılmışdı?***

- Konkret səbəb göstərilməyib. Sadəcə olaraq, "işlerimizin gözlendiyi kimi getmədiyindən dolayı" belə bir qərar verildiyi yazılıb. İstəsəniz, mən sizə həmin məktubun mətnini tam oxuyaram. "Fuad bey, merhaba. Orada işlerin istediyimiz gibi gitmemesinden dolayı artık seninle çalışmama kararı aldık. Bu günden itibaren artık İhlas Haber Ajansı ile hiç bir bağlantın kalmamıştır. Bu hususu tarafına bildirir, bundan sonrakı hayatında başarılar dilerim. Dış Haberler Müdürü Muhammer Sergen".

***- Yəqin ki, bu məktubu aydınlaşdırmağa çalışdız.***

- Təbii ki. Amma bizim Dış (xarici-S.T.) Haberler müdiri Muhammer Sergendən bir şey öyrənmənin mənasının olmadığını düşünürəm. Çünki o, mənim kimi sıravi bir əməkdaşdır, heç bir qərar vermə haqqı yoxdur. Böyük ehtimalla bu qərar bizim rəhbərlik tərəfindən alınıb. Onunçün mən rəhbərliyə yaxın olan, amma adını çəkmək istəmədiyim insanlarla danışdım. Onlardan isə belə açıqlama gəldi ki, rəhbərlik Moskvadan gəlmiş ricamı deyim, tələbmi deyim - bunu necə adlandıracağımı özüm də bilmirəm - o söz üzərinə alınmış bir qərar verib.

***- Amma Azərbaycan mediasına sizinlə bağlı verdikləri açıqlamalarla yəqin ki, tanışsız. İşdən çıxarılmanıza səbəb olaraq sizin onları videomateriallarla təmin etməmənizi göstərirlər.***

**"İndi üzərimdə jurnalist vəsiqəm olmadığı üçün təhlükəyə məruz qalacağımı deyirlər"**

- Bu iddia Muhammer Sergendən gəlib. Ola bilər ki, işlə əlaqədar gözlədikləri potensialı müəyyən dərəcədə verməmişəm. Amma mənim üçün Azərbaycan və Türkiyənin bugünkü günündə Moskvada meydana gələn maqazin, bulvar xəbərlərindən daha üstün Türkiyə və Azərbaycanın Rusiya mediasında, rus ictimaiyyətinə səsini çatdırmaq idi. Bunu daha vacib hesab etdiyim üçün bəlkə də son vaxtlarda onların istədiyi qədər xəbər göndərməmiş ola bilərəm. Onlara da bunu çox açıq şəkildə ifadə etdim ki, ölkələrimizin bugünkü günündə hansı tərəfə daha çox ağırlıq verməyimi onlar başa düşməlidilər. Digər tərəfdən, bizim "İhlas" xəbər agentliyi ilə aramızda başqa məişət mübahisələrimiz olub. Onları da açıqlamaq istəmirəm. Kim kimə nə vəd edib, kim kimə nə borcludur... Onların da bir çox nöqsanları olub. İndi onları açıqlamağı doğru hesab etmirəm. Amma yenə də deyirəm, son zamanlar həm Azərbaycanın, həm Türkiyənin Rusiya qarşısındakı informasiya müharibəsində uduzduğu bir zamanda məndən görüntü, videomaterial tələb etmələrinin ən azı haqsızlıq olduğunu düşünürəm. Bu biri tərəfdən, işdən çıxarılmaqla bu cür problemlərin həll olunmasını lüzumsuz görürəm. Xüsusən də belə bir dönəmdə. Bunu bir ay sonra etsəydilər...? Azərbaycanı 1 aydır təmsil edirəm, telekanallarda müdafiə edirəm, amma Türkiyəni 6 aydır... 6 ayda bir dəfə belə bir şey ortaya çıxmadı, Azərbaycanı təmsil edəndən bir həftə sonra ortaya belə bir şey çıxdı. Bu da çox üzücü bir haldır. Nə qədər çox vaxt keçirsə, o qədər də çox sual meydana gəlir. Sözün düzü, mən bu sualların cavabını axtarmıram. Rəhbərlik səviyyəsində alınmış bir qərardır. Onların qərarına da hörmətlə yanaşıram. Ticari şirkət olmalarından dolayı bəlli bir ticari tələbləri var. Bu tələblər yerinə yetirilməyib, ya da gözlədikləri işlər istədikləri kimi getməmiş ola bilər. Qərarı da buna görə vermiş ola bilirlər. Buna qarşı çıxacaq gücüm yoxdur.

***- Sizə elə gəlmirmi ki, diplomatik münasibətlərin fonunda sizi qurban verdilər? Türkiyə-Rusiya münasibətlərinin gərgin dönəmində Türkiyə tərəfi sizi sadəcə xərclədi fikri ilə razısızmı?***

- Bu fikir mənim ağlıma gəlir. Versiyalardan biri olaraq gözdən keçirirəm. Mən çox şad olardım ki, bu versiya düzgün olsun. Bəlkə də mənim çıxışlarımda Ərdoğanın tərəfində durub, Putinə qarşı çıxmağım Rusiya hökumətinin xoşuna gəlməyib və buna görə rəsmi Türkiyəyə müraciət edilə bilər. Türkiyə də məni aradan qaldıraraq bunu Rusiyaya doğru bir addım kimi ata bilər. Əgər mənim işdən uzaqlaşdırılmağımla iki ölkə arasında münasibətlər düzələcəksə və ya bu, münasibətlərin düzəlməsinə xidmət edirsə, buna şad olaram. Bir çox türk-rus ailələri, bu ailələrdən olan uşaqlar ayrı qalıblar, bu siyasətin qurbanı olublar. İqtisadiyyat, turizm bundan ziyan çəkir. Türkiyədən minlərlə insan Rusiyaya, Rusiyadan minlərlə insan Türkiyəyə gələ bilmir. Bu isə iki siyasətçinin ortaq məxrəcə gəlməməsindən irəli gəlir. Əgər belə bir şey təsdiqlənsə, şad olaram ki, iki dövlət məni qurban verərək öz mövqelərini yaxınlaşdırmış oldular.



**Fuad Abbasov:** "Azərbaycanda işləməyim daha böyük şərəf olardı, nəinki Türkiyə və Rusiyada"

***- Fuad bəy, Türkiyə-Rusiya münasibətlərinin ən gərgin dönəmində necə, belə verilişlərə çıxıb, eyni şövqlə Türkiyəni də müdafiə edirdizmi?***

- Əlbəttə ki. Türkiyəni müdafiə etdiyim zamanlarda da təhlükə var idi. Türkiyəni sevməyənlər az deyil. İstər suriyalılar olsun, istər PKK-lılar. Türkiyənin içindəki müxalif güclər tərəfindən də təpkilər olurdu. Əsasən facebook səhifəmə yazırdılar. Təbii ki, ermənilər kimi "kəsəcəyik, öldürəcəyik" şəklində yox, "sözlərinə diqqət et", "təktərəfli mövqe tutursan, Ərdoğanın tərəfini tutursan" şəklində ittihamlar vardı. Onları çox ciddiyə almırdım.

***- Bundan sonra işinizlə bağlı hansı planlarınız var? Moskvada qalıb Türkiyə və ya Azərbaycan adına jurnalistika ilə məşğul olmaq istəyirsizmi?***

- İndilik hər hansı qərarım yoxdur. Hazırda dincəlmək fikrim var. Son 1 ayda həm psixoloji, həm də fiziki cəhətdən yoruldum. Sonra iş axtarışlarına başlayacam. Gələn iş təkliflərinə əsasən, harada işləyəcəyimə qərar verəcəm. Amma harda işləyəcəyimdən asılı olmayaraq, yenə də əvvəlki kimi Azərbaycanın mövqeyini istər Rusiyada, istər dünyada qorumağa davam edəcəm və yolumdan dönməyəcəm.

***- Hazırda təhlükəsizliyiniz üçün narahatsınızmı? Bu günə qədər ermənilər və ruslar əleyhinə etdiyiniz çıxışlar, sizə gələn hədə-qorxular və hazırda arxanızda sizi müdafiə edəcək media orqanının olmaması... Bu, təhlükələri artırırmı?***

- Təhlükəsizlik haqda narahatçılığım yoxdur. Çünki bir atalar məsəli var - qorxan gözə çöp düşər. Bir çox dostlarım deyirlər ki, mən hazırda jurnalist kimliyində yox, sıravi bir vətəndaş kimliyində olduğum üçün təhlükəyə məruz qala bilərəm. Jurnalistdən hansısa formada qorxurlar, çəkinirlər, yaxın durmurlar. Adicə yolda gəzdiyim zaman, üzərimdə jurnalist vəsiqəm olmadığı üçün daha çox təhlükəyə məruz qalacağımı deyirlər. Amma bu, məni qorxutmur. Əvvəlki həyat tərzimə davam edirəm. Metrodan istifadə edərək, işə gedib-gəlirəm. Şəhərdə tanıyanlar çox olur. Bununla belə, hər hansı neqativ hallar əmələ gəlməyib. Yenə də Allahın işidir. Allah mənə nə qədər ömür veribsə, o qədər də yaşayacam. Qorxaraq baş verəcək hər hansı hadisənin qarşısını almaq mümkün deyil.

**"Təhlükəsizlik haqda belə narahatçılığım yoxdur. Allah nə qədər ömür veribsə, o qədər də yaşayacam"**

***- Fuad bəy, Azərbaycan hakimiyyətindən hər hansı media orqanında çalışmaqla bağlı təklif gəlsə, bunu qəbul edərsinizmi?***

- Mən Azərbaycan vətəndaşı olaraq uzun müddət Rusiyada yaşamağıma baxmayaraq, Azərbaycan pasportumu heç vaxt dəyişməmişəm, Azərbaycan vətəndaşlığımı qorumuşam. Baxmayaraq ki, bu, həm özüm, həm ailəm üçün problemlər yaradıb. Özümü Azərbaycanın bir əsgəri kimi görməkdəyəm. İstər informasiya müharibəsində, istərsə səngərdə - heç bir fərqi yoxdur. Təbii ki, özümü Azərbaycana xeyir verən jurnalist kimi görmək istəyirəm. Çünki 1994-cü ildə Türkiyəyə yola salınan tələbələr olaraq bizə böyük ümidlər bəslənirdi. Bizə gələcəyin dövlət yönəticisi gözü ilə baxırdılar. Ona görə də o gözləntiləri doğrultmaq üçün mənim Azərbaycanda işləməyim daha böyük şərəf olardı, nəinki Türkiyədə və Rusiyada işləmək. Hətta Moskvadakı səfirlikdə əməkdaşlarla apardığım görüşlərdə bunu bildirdim. Orada da müəyyən tənqidlər oldu ki, mən Azərbaycan jurnalisti olaraq Rusiyada Türkiyəni təmsil edirəm. Mən də təəssüflə bildirdim ki, başqa bir jurnalist dəvət edilmir. Ancaq mən dəvət edilirəm, mən də dəvət edilmişkən ürəyimdəki sözləri rus ictimaiyyətinə duyururam. Hətta bildirdim ki, əgər Azərbaycan tərəfindən hər hansı təklif edilsə, mən Türkiyə agentliyindən ayrılıb, Azərbaycan mediası ilə çalışmağa hazıram. Amma Azərbaycan tərəfdən hər hansı təklif gəlməyib. Türkiyə tərəfi isə məni öz işimdən uzaqlaşdırdı. Nəticə olaraq üzülmürəm. Demək ki, yüksək rəhbərlik səviyyəsində - ya Türkiyə, ya Rusiya, bunu hələ dəqiq bilmirəm - dediyim sözlər hədəfə çatıb və bunun da nəticəsində mən işsiz qalmışam.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 80 (6401) 15 aprel 2016




# İƏT-in zirvə toplantısında mühüm qərarlar verildi

## İlham Əliyev: “Ermənistan danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır”

**Aprelin 14-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatı (İƏT) dövlət başçılarının XIII Zirvə toplantısı öz işinə başlayıb. İƏT baş katibi İyad Madani zirvədə açılış nitqi edib. Dünya müsəlmanlarının problemlərinə toxunan İ.Madani Azərbaycan və Dağlıq Qarabağ mövzusunda da danışıb.**

“Ermənistan Azərbaycan ərazisi olan Dağlıq Qarabağdan qoşunlarını çəkmir”. APA-nın məlumatına görə, bunu toplantıda İ.Madani deyib. Baş katib bildirib ki, işğal illərdir davam edir: “BMT Təhlükəsizlik Şurasının, digər beynəlxalq təşkilatların münaqişə ilə bağlı qərarlarına erməni tərəfi əməl etmir. Biz problemin tezliklə həll olunmasını istəyirik. İşğalçı ordu tez bir zamanda zəbt etdiyi torpaqlardan çıxmalıdır. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Azərbaycanın suverenliyi qəbul edilməlidir”.

**İslam ölkələrinin ərazi bütövlüyünün qorunmasının vacibliyini diqqətə çatdıran İyad Madani deyib ki, İƏT-in təsir gücünün və etibarının artırılması üçün üzv ölkələrin məruz qaldığı haqsızlıqların aradan qalxmasına çalışılmalıdır:** “Bu çərçivədə Dağlıq Qarabağ probleminin həll edilməsi istiqamətində İƏT-in təmas qrupunun yaradılmasını qərarlaşdırmışıq. Təmas qrupunun yaradılmasıyla bağlı maddənin İƏT-nin zirvə toplantısının yekun bəyannaməsinə daxil edilməsi gözlənilir”.

**Zirvəni Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan aparır. Ərdoğan özü çıxışında deyib:** “Mən nə sünniyəm, nə şiəyəm. Mən müsəlmanam. İslam adına hər gün məzlumları öldürən, yağmalayan terror hörgütləri müsəlman ola bilməzlər! Onlar İslam adına hərəkət edə bilməz, müsəlmanlara faydalı olmaz. Biz İslam dövlətləri olaraq nə qədər bir-birimizə qarşı düşəriksə, insanlarımız bir o qədər zərər çəkəcək. Hazırda hər yerdə qırılan, zərər görən, əziyyət çəkən müsəlmanlardır. İslam sülh və barış dinidir. İxtilafları deyil, bağlılıqları gücləndirməliyik. Çünki yaşanan toqquşmalardan zərər görən, sadəcə, müsəlmanlardır, İslam ölkələridir. Dostları çoxaldıb, düşmənləri azaltmalıyıq. Bugünkü zirvənin xüsusən bütün müsəlmanların birliyi, bərabərliyi yolunda bir milad, dönüş nöqtəsi olmasını Allahdan diləyirəm”.

**Ərdoğan bildirib ki, hazırda terror aktlarından ən çox müsəlmanlar əziyyət çəkir:** “Bu terror təşkilatlarının əsas zülmü müsəlmanlaradır. Dünyanın hər yerində insanlara qarşı törədilən aktları pisləşmişik. Parisdə, Brüsseldə baş verən terrordan danışdılar. Ancaq Ankara, İstanbul, Lahorda törədilmiş terror aktlarından bəhs etmədilər. Bu ikili yanaşma bizi üzür. Terror təşkilatlarının hamısına qarşı eyni formada mübarizə aparmaq lazımdır. Buradan bir daha dünya ictimaiyyətini terror təşkilatlarına münasibətlərini gözdən keçirməyə çağırıram”.

Türkiyə prezidenti İƏT ölkələri arasında terrora qarşı əməkdaşlığı möhkəmləndirməyin vacibliyini də diqqətə çatdırıb.

**Musavat.com xəbər verir ki, BMT Təhlükəsizlik Şurasının quruluşuna diqqət çəkən Ərdoğan deyib ki, ədalətsizlik üzərində qurulan bir qurum dünyaya ədalət dağıda bilməz:** “Bu, dəyişdirilməlidir. Biz də İslam ölkələri olaraq, orada öz yerimizi, haqqımızı tələb etməliyik. Ağlamayan uşağa süd verilməz. Biz də öz haqqımızı israrla tələb etməliyik. TŞ dünyadakı gerçəkliklər, yapılanları nəzərə alaraq, yenidən qurulmalıdır. Bir təklifim var - İslam İş Birliyi Təşkilatının Qadın Konfransı oluşdurulsun. Müsəlmanların öz qadınlarının dərdlərini danışmaq və həll etmək üçün bir təşkilatı olsun”.

O, müsəlmanların problemləri sırasında Şimali Kipr Türk Cümhuriyyətinə dəstək verilməsi zərurətini də söyləyib.

Ərdoğan dünyanın gündəmində olan miqrant mövzusundan da danışıb.

**Daha sonra Zirvə iştirakçılarına Türkiyəyə sığınan müsəlman qaçqınlarla bağlı qısa film izlətdirilib.**

“Dünyada müsəlman toplumlarının yaşadığı, zamanla bu və ya digər şəkildə islam kimliyinin silinməyə çalışıldığı torpaqların işğaldan azad edilməsi üçün ortaq mövqe nümayiş etdirməliyik”.

**APA-nın xəbərinə görə, bunu Türkiyənin baş naziri Əhməd Davudoğlu zirvə toplantısında çıxışı zamanı deyib. Fələstinin müstəqilliyinə qovuşmasının vacib olduğunu söyləyən Ə. Davudoğlu diqqəti Dağlıq Qarabağ münaqişəsinə də yönəldib:** “Eyni şəkildə Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsi ilə bağlı da ortaq mövqe sərgilənməlidir”.

İlham Əliyev İstanbulda İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin birinci sessiyasında geniş çıxış edib.

**APA-nın məlumatına görə, son illərdə qardaş Türkiyənin beynəlxalq aləmdə artan nüfuzu sayəsində “Böyük İyirmiliyin” üzvü kimi qlobal inkişafa mühüm töhfə verdiyini deyən dövlət başçısı Azərbaycanın İslam ölkələri ilə əməkdaşlığı prioritet hesab etdiyini vurğulayıb:** “Son illər ərzində Bakıda İƏT-ə üzv ölkələrin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirlərinin 10-a yaxın görüşü olub. Mən İƏT-in qarşılıqlı dəstək və həmrəylik yolunda fəaliyyətini yüksək qiymətləndirirəm. Bu gün dünyada islamofobiya ciddi təhlükələrdən biridir. Biz bu tendensiyanı qətiyyətlə pisləyirik. Əslində İslam sülh, mərhəmət, dözümlülük, ədalət dinidir. İslamı terrorla eyniləşdirmək isə səhv və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir”.

**Prezident Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də danışıb. Ermənistan 20 ildən artıqdır Azərbaycana qarşı işğalçılıq siyasəti apardığını deyən dövlət başçısı qeyd edib ki, bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal edilib, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb:** “Ermənistan Xocalı soyqırımını törədib. Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda Qoşulmama Hərəkatı, ATƏT, AŞ PA və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyən ədalətli qətnamələrə görə İƏT-ə səmimi minnətdarlığımı bir daha ifadə edirəm. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır. Onlardan biri də aprelin əvvəllərində törədilib. Silahlı hücum nəticəsində Azərbaycan hərbçiləri və mülki şəxslər həlak olublar. Azərbaycan ordusu Ermənistanın təxribatının qarşısını aldı. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar İƏT qərar qəbul edib ki, xarici işlər nazirləri səviyyəsində kontakt qrupu yaradılsın. Bu qərara görə təşəkkür edirəm”.

**Dövlət başçısı onu da qeyd edib ki, Azərbaycan mütəmadi olaraq mədəniyyətlər və dinlərarası dialoqa öz töhfəsini verir:** “Aprelin sonunda biz BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu keçirəcəyik. Azərbaycan İslam ölkələri arasında həmrəyliyə böyük əhəmiyyət verir. 2017-ci ildə IV İslam Həmrəylik Oyunları Bakıda keçiriləcək. Bu münasibətlə mən sizin hamınızı bu oyunları seyr etmək üçün Bakıya dəvət edirəm. İnanıram ki, bu tədbir İslam aləmində sülhün və həmrəyliyin möhkəmlənməsinə xidmət edəcək”.

***

İlham Əliyev İstanbulda Türkiyənin baş naziri Əhməd Davudoğlu ilə görüşüb.

Musavat.com “Anadolu” agentliyinə istinadən xəbər verir ki, İstanbul Konqres Mərkəzindəki görüş təxminən 15 dəqiqə davam edib.

Əhməd Davudoğlu Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttindəki son hadisələr zamanı verilən şəhidlərlə əlaqədar Azərbaycan prezidentinə başsağlığı diləklərini çatdırıb. O bəyan edib ki, Türkiyə hər zaman və bütün şərtlər altında Azərbaycanın yanında olacaq.




**Ərdoğan:** “Yaşanan toqquşmalardan zərər görən müsəlmanlardır, İslam ölkələridir”



**İyad Madani:** “Dağlıq Qarabağ probleminin həll edilməsi istiqamətində İƏT-in təmas qrupunun yaradılmasını qərarlaşdırmışıq”





**Davudoğlu:** “Azərbaycan torpaqlarının azad edilməsi ilə bağlı ortaq mövqe sərgilənməlidir”

YENİ MÜSAVAT
N 80 (6401) 15 aprel 2016

**Aprelin 11-də paytaxtın Binəqədi rayonunun Cavadxan küçəsində kirayədə yaşayan Bərdə Rayon İcra Hakimiyyətində çalışmış Hüseyn Qasımova iki şəxs tərəfindən avtomat silahla açılan atəş ölkə gündəmini silkələdi. Yaralanan H.Qasımov artıq evinə buraxılıb. Hadisədə təqsirli bilinən Bakı şəhər sakinləri Ramil Hüseynli və Günel Süleymanova isə saxlanılıb. Qadının istintaqdakı ilkin ifadələri kifayət qədər tükürpədicidir. H.Qasımovun onu zorladığını iddia edən G. Süleymanova bildirib ki, bunun üçün ondan qisas almaq qərarına gəlib və buna görə də Ramil Hüseynlini killer tutub. Qadının istintaqdakı ifadələrindən aydın olur ki, Ramil cinayəti başa çatdıracağı təqdirdə ondan 40 min manat alacaqmış.**



Ramil Hüseynli

# Killerlər neçəyə adam öldürür?

## Binəqədidə killerin törətdiyi cinayət bu məsələni aktuallaşdırıb; Azərbaycanda killerlərin iştirakı ilə törədilən çoxsaylı qətllər var ki, hələ də üstü açılmayıb...

Qeyd edək ki, bu cinayətin üstü qısa zamanda açılsa da, indiyə qədər killerlərin iştirakı ilə Azərbaycanda çoxsaylı qətllər törədilib və hələ də cinayətlərin üstü açılmayıb. Bu silsilədə "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynov, general-leytenant Rail Rzayev, Bakı Dənizçilik Məktəbinin rəhbəri Eduard Hüseynov, deputat Əli Ansuxski, "Qara polkovnik" ləqəbli Fətulla Hüseynov, iki oğlu ilə birlikdə öldürülən ekstrasens Etibar Elkin, yazıçı Rafiq Tağı və bu kimi səs-küylü qətlləri yada salmaq kifayətdir.

Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinin baş əməliyyat müvəkkili Hacı Məmmədova qarşı keçirilən əməliyyatlardan sonra məlum olmuşdu ki, onun sifarişi ilə əsasən çeçenlərdən ibarət şəxslərdən killerlər tutulub və istədikləri şəxsləri məhz onların əli ilə aradan götürüblər. Məhkəmə zamanı o da məlum olmuşdu ki, həmin killerlər 200-300 dollar müqabilində cinayət işini həyata keçiriblər.

Killerlərin qətl törətməyi üzərlərinə götürdükləri zaman razılaşdıqları məbləğ daim maraq doğurur.

**Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev bu cür qətllərin səbəb və məqsədlərinin olduğunu söylədi:** "Hər hansı bir cinayətlə bağlı söhbət etmək üçün bunun obyektiv, subyektiv tərəfləri olur. Əsas fikir nədir, bu istiqamətdə qərarlar qəbul edilir. Bu gün kriminal aləmdə kiminsə qətlini sifariş vermək kimi hallar var. Şükürlər olsun ki, Azərbaycanda bu kimi hallar bir o qədər də geniş yayılmayıb. Təbii ki, sifarişlə qətlə yetirmək xüsusi xidmət orqanlarına da xas olan məsələdir. Əgər bir insan ictimai-siyasi xadimdirsə, ola bilsin ki, onun barəsində xarici xüsusi xidmət orqanları hansısa qərar qəbul etsinlər. Azərbaycanda killerin iştirakı ilə sonuncu cinayət işinə gəlincə, bu fakt hələ araşdırılır. Kimin-kimə borcu olması barədə yuxarıda qeyd etdiyim obyektiv və subyektiv tərəflər ortaya çıxandan sonra qərar qəbul etmək olar. Hər hansı bir cinayətin qiyməti olmaz. Evi-eşiyi olmayan bir "bomj"a 50 dollar verib desən ki, əl qumbarasını filan yerə tulla, bəlkə də tullayar. Yəni belə cinayətlərin konkret qiyməti olmur. İnsanın kimliyindən, hansı pisliyi etməyindən çox şey asılıdır. İnanmıram ki, bu cür cinayətlərin konkret qiyməti olsun".



**Arzu Nağıyev:**
"Belə cinayətlərin konkret qiyməti..."

❑ **Cavanşir ABBASLI**

# Sabiq məmurun qətlini sifariş edən qadının atası da tutuldu



Günel Süleymanova

**Aprelin 11-də sabiq məmurun güllələnməsi hadisəsi ilə bağlı Bakı Şəhər Baş Polis İdarəsi və Bakı Şəhər Prokurorluğu birgə açıqlama yayıb.**

"Qafqazinfo"ya daxil olan məlumatda bildirilir ki, aprelin 11-də saat 05:30 radələrində Binəqədi rayonu, 9-cu mikrorayon, Cavadxan küçəsi, 3 saylı binanın qarşısında 1973-cü il təvəllüdlü Hüseyn Qasımova odlu silahla xəsarət yetirilməsi faktına görə rayon polis idarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin 221.3 (xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) və 228.1-ci (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanıb.

Müəyyən edilib ki, aprelin 9-da 1983-cü il təvəllüdlü, əvvəllər məhkum olunmuş Ramil Hüseynli tanışı Günel Süleymanova ilə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək, H.Qasımovu 40.000 manat müqabilində öldürmələri barədə razılaşıblar.

Onlar aprelin 11-də sonuncunun yaşadığı ünvana gəliblər. H.Qasımov binadan çıxıb avtomobilinə oturmaq istədikdə, R.Hüseynli qanunsuz olaraq gəzdirdiyi "Kalaşnikov" markalı avtomat silahdan H.Qasımova bir neçə atəş açaraq onu qəsdən öldürməyə cəhd edib, lakin iradəsindən asılı olmayan səbəblərə görə cinayət əməlini başa çatdıra bilməyib.

Bundan başqa, G.Süleymanova atası Rasim Süleymanovla qabaqcadan əlbir olub H.Qasımovun etibarından sui-istifadə edib, sonuncunun oğlu Orxan Xəlillinin həbsdən azad olunmasına köməklik edəcəyini vəd edib, külli miqdarda pulunu ələ keçirərək dələduzluq ediblər.

Bakı Şəhər Prokurorluğunun İstintaq İdarəsi tərəfindən aparılan istintaq tədbirləri nəticəsində cinayətin R.Hüseynli, G.Süleymanova və R.Süleymanov tərəfindən törədilməsində əsaslı şübhələr yarandığından onlar tutularaq istintaqa cəlb olunublar.

Ramil Hüseynli Cinayət Məcəlləsinin 29,120.2.1 (tamah məqsədi ilə və ya sifarişlə qəsdən adam öldürməyə cəhd), 29.120.2.5 və 228.1-ci, Günel Süleymanova 29,120.2.1, 29.120.2.5 və 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə), Rasim Süleymanov isə 178.3.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

R.Hüseynlinin kirayədə yaşadığı evdən 1 ədəd "AKM" markalı avtomat silah və ona aid içərisində 22 ədəd patronlar olan 1 ədəd daraq aşkar edilərək maddi sübut kimi götürülüb.

Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

# Komitə sədrinin müavininin "dindarlaşma" fikrinə deputatlardan reaksiyalar

**"Azərbaycanda bu gün dindarların sayının artması prosesi gedir. Bu proses müsbət tendensiya olsa da, getdikcə cəmiyyətdə bir sıra problemlərlə də qarşılaşırıq. Təəssüf ki, dindarların sayının artması prosesi nəticəsində bəzi dini qruplar daxilində məqsədli şəkildə milli kimliyimiz dini kimliyimizə qarşı qoyur. Bəzi dini qruplar daxilində radikallıq meylləri yaranır, dünyəvi dövlətə qarşı çıxışlar meydana gəlir ".**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bu fikirləri Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi tərəfindən təşkil olunan "Ailə institutunun formalaşmasında adət-ənənələrimiz" adlı tədbirdə çıxışı zamanı səsləndirib. Komitə rəsmisi ölkədəki dindarlaşma prosesini "dırnaqarası dindarlaşma prosesi" adlandırıb.

G.İsmayılovun bu fikirlərini fərqli şəkildə şərh edənlər var. İlk baxışda komitə rəsmisinin çıxışında sürətlənən dindarlaşma prosesinin ailə münasibətlərində, adət-ənənələrin formalaşmasında problemlərin yaratdığını demək istəməsi anlaşılır. Ancaq bəzi ekspertlərin şərhinə görə, bu fikirlər daha çox hökumətin ölkədə dindarların sayının artmasından, dindarlaşma prosesinin sürətlənməsindən narahatlığı ifadə edir.

Son illər bütün dünyada dini qruplaşmaların, təşkilatların fəallaşması, hətta bəzi Avropa ölkələrində belə radikal dindarların meydan sulaması Azərbaycan hökumətini də bu məsələdə daha ehtiyatlı olmağa məcbur edir. Ölkədə müxalifətin zəif fəaliyyəti hökumət üçün heç bir problem yaratmadığından hazırda əsas diqqət radikal dindarların üzərinə yönləndirilib.



**Fazil Mustafa:**
"Dindarların sayının artması ölkə üçün nə təhlükə ola bilər ki?!"



**Zahid Oruc:**
"Biz özümüz işıqlı dindarlar hazırlamalı, onlara yaxşı təhsil verməliyik"

**"Yeni Musavat"a danışan deputat Fazil Mustafanın fikrincə, ölkədə dindarların sayının artması hakimiyyət üçün heç bir təhlükə ola bilməz. F.Mustafanın fikrincə, yalnız xarici qüvvələrin, dövlətlərin təsiri altında olan bir qrup cərəyanlar təhlükə ola bilər:** "Alkoqoliklərin, fahişələrin, əxlaqsızların sayının artması ölkə üçün təhlükədir. Dindarların sayının artması ölkə üçün nə təhlükə ola bilər ki?! Təbii ki, hansısa qonşu ölkələrdən yönləndirilən və müəyyən dərəcədə ipi həmin ölkələrin əlində olan bir qrup dini cərəyanlar var. Bu cərəyanlar qonşu ölkələrdə hansısa din adamını təqlid edirlər, hansısa təriqət şeyxinin ardıcılları kimi onun iradəsini təbliğ edirlər. Bax, bunlar təhlükə ola bilərlər. Sırf Azərbaycana bağlı dindarların nə təhlükəsi ola bilər ki? Bunlar normal ibadətlərini edirlər, ölkə qanunlarına da tabe olurlar. Ona görə də ümumiləşdirmək doğru olmaz".

**Deputat düşünür ki, ölkədə inanclı insanların sayının artması müsbət və sevindirici haldır:** "Ölkədə inanclı insanların sayının artması, əksinə, müəyyən dərəcədə korrupsiya və ya qeyri-qanuni fəaliyyətlərin azalması ilə müşayiət olunmalıdır. Bu baxımdan da mən burada bir təhlükə görmürəm. Sadəcə, söhbət hansısa kənardan idarə olunan radikal dindarlardan gedirsə, bunların sayı artdı-artmadı, ölkə üçün həmişə təhlükədir. Ancaq yalnız öz ibadəti ilə məşğul olan sadə dindar vətəndaş isə ölkənin qazancı, baş tacıdır. Ən azından onlar ölkədə ədaləti arzulayan insanlardı. Bunu kim istəməz ki? Məhz buna görə bu cür dindarları ölkə üçün təhlükə kimi qələmə vermək yanlışdır. Onların cəmiyyət üçün heç bir ziyanı olmaz".

**Deputat Zahid Oruc da Azərbaycanda dindarların sayının artmasının yox, radikal cərəyanların üzvlərinin təhlükə ola biləcəyini düşünür.** "Mən düşünmürəm ki, Azərbaycanda hansısa dini inqilab baş versin və hansısa xarici dairənin əli ilə onu ixrac etmək mümkün olsun. Bizdə dini etiqadlıların sayı artsın, amma bu həm də özünü ədalətli olmaqda, imanlı olmaqda, qonşunun haqqını tapdalamamaqda, cəmiyyətə münasibətdə və s. təzahür eləsin. Pis o olar ki, oruc tutan bir aydan sonra qonşunun haqqına əl uzadır, pis o olar ki, məsciddə namaz qılıb qurtarandan sonra çöldə başqasının işinə ziyan vurur və qeybətlə məşğul olur. Ən dəhşətlisi odur ki, Həcc ziyarəti edib ölkəyə dönəndən sonra mürvəti aşağı olsun və ya hansısa qara əməllər törətmiş olsun. Əksinə, ziyarətini Allahla özü arasında xilas vasitəsi kimi düşünsün. Azərbaycanda yalnız kənar təsirlər vasitəsilə o radikalizm baş verə bilər" deyə, deputat cavabında bildirir.

**Z.Oruc ölkə üçün təhlükə ola biləcək radikal dini cərəyanlardan qorunmağı və bu təhlükənin qarşısının necə alına biləcəyini də açıqlayır. Onun fikrincə, bunun da qarşını almaq üçün birinci yol Azərbaycanda işıqlı dindarlar hazırlamaqdır:** "Biz özümüz işıqlı dindarlar hazırlamalı, onlara yaxşı təhsil verməliyik. İndi ən önəmlisi odur ki, cəmiyyətə biz İslam Universitetimiz vasitəsilə, eyni zamanda mədrəsələrdə milli adamlarımızı yetişdirək ki, daha mollalar yas mərasimlərində geriliklə, mövhumatçılıqla məşğul olmasın. Həqiqəti, tarixi, dövləti, dövlətçiliyi təbliğ edə bilsin. Biz açıq deməliyik ki, ermənilərlə bütün sahələrdə müharibə vəziyyətindəyik. Son dörd günlük müharibə müddətində onların kilsələrinin baş rahibləri xalqı özləri səfərbər etməklə məşğul idilər. Azərbaycanlı din xadimi niyə dövlətçi, milliyyətçi olmasın? Niyə bu vətəni sevməsin? Ona görə də çıxış yolu zorən gedib məsciddə namaz qılanların sayını azaltmaq deyil. Qoy qılsınlar, amma birinci növbədə məktəbə getsinlər, təhsil alsınlar. Biz hər zaman deməliyik ki, peyğəmbərimiz məktəbi məsciddən daha yüksək yerdə tutub. Savadsız adamın dindarlığından xeyir deyil, ziyan gələr. Çünki bəzən o müəyyən cərəyanlara qoşularaq elə bilir ki, cənnətə gedən yol Suriyadadır. Çıxış yolu mənəvi, siyasi, təfəkkür, təhsil istiqamətindədir".

❑ **İ.MURADOV**

# Ermənilərin anti-Rusiya mitinqi - İrəvanın və Moskvanın oyunu

## İqbal Ağazadə: "Bununla dünyanı, Azərbaycanı aldatmaq istəyirlər ki, guya Rusiya artıq Ermənistanın tərəfində deyil, tərəfsizdir"



**İşğalçı Ermənistanda Rusiyaya qarşı etiraz aksiyaları keçirilir. Belə yürüş-mitinqlərdən ən böyüyü aprelin 13-də Rusiyanın İrəvandakı səfirliyinin qarşısında oldu. Ermənistan KİV-nin yaydığı xəbərlər və videomateriallarda etirazçılar "Rus qoşunları Ermənistandan rədd olsun!", "Siz müttəfiq deyilsiniz!", "Rusiya, Azərbaycana silah satma", hətta "Putin-terrorist" şüarlarını səsləndiriblər. Mitinq təşkilatçıları polis kordonlarının əhatəsində olmasına baxmayaraq, səfirliyin binasına bir neçə dəfə yumurta da tullayıblar.**

Ekspertlər hesab edir ki, əslində burada Ermənistan hakimiyyətinin hədəfi nə Rusiya, nə də onun Azərbaycana silah satmasıdır. Çünki ermənilərin etirazı ilə buna əngəl olmağın mümkünsüzlüyünü ən gözəl bilən elə Serj Sərkisyanın özüdür. Ehtimallara görə, ermənilərin anti-Rusiya mitinqi əslində Rusiyanın da maraqlarına xidmət edən bir oyundur. Bu oyunu hakimiyyət Rusiyanın razılığı və istəyi ilə oynayır.

Bir çox təhlilçilərə görə, Rusiyanın gələcək planlarında öz qoşunlarını sülhməramlı qoşunlar adı altında Qarabağa yerləşdirmək planı var. Bunun üçün də o, tərəfsiz olmalıdır. İrəvandakı etiraz aksiyaları Rusiyaya məhz belə bir imici süni şəkildə yaratmağa da xidmət edir.

**Ümid Partiyasının sədri İqbal Ağazadə də bu barədə danışarkən bildirdi ki, Ermənistandakı Rusiya əleyhinə mitinq səmimi deyil. Bu, Ermənistan siyasi hakimiyyətinin oyunudur və Rusiyanın marağına xidmət edir. Odur ki, anti-Rusiya mitinqi bir az da Rusiyanın oyunudur:** "Rusiya Qarabağ məsələsində həmişə Ermənistanın tərəfində olub və bunu bütün dünya bilir. İndi Rusiyanın özünün də marağındadır ki, həmişə tərəfini saxladığı, güzəştli şərtlərlə, bir çox hallarda pulsuz silahlandırdığı işğalçı Ermənistanda Rusiyanın əleyhinə şüarlar səsləndirməklə region problemlərinin həllində Rusiyanın tərəfsiz olduğu görüntüsünü ortaya qoysun. Bu mitinqlərlə dünyanı, Azərbaycanı aldatmaq istəyirlər ki, guya Rusiya artıq Ermənistanın tərəfində deyil. Eyni zamanda bu mitinqlər vasitəsilə Ermənistanı Rusiyanın silahlandırması üçün psixoloji baza hazırlanır. Müttəfiqliyin daha irəli gedən çalarları üzərində daha çox işləyirlər".

**İ.Ağazadə bununla belə, vurğuladı ki, indiki vəziyyətdə Qarabağ məsələsində status-kvonun dəyişdirilməsi və yaxud sülh sazişinin imzalanması və rus qoşunlarının bölgəyə yerləşdirilməsi Rusiyaya hələlik lazım deyil:**"Rusiya hələlik arbitr rolunu oynaya, tərəflərə təzyiq edə bilən konfliktin olmasını istəyir. Qarabağ konfliktinin qalması Rusiyanın tərəflərə təzyiqi üçün imkanlar yaradır. Bölgədə rus qoşunları olmadan da Rusiya təzyiq imkanlarına malikdir. Konfliktin həll edilməmiş qalması Moskvaya daha çox lazımdır. Əgər konflikt son həddə çatarsa, Rusiya artıq görsə ki, regionda mövqelərini itirir, ən son anda qoşunlarını regionda yerləşdirmək istəyər. Abxaziya və Cənubi Osetiya məsələsində də ən son anda Rusiya qoşunlarını oraya yerləşdirmişdi. Gürcüstan regionu özünə tabe etdirmək üzrə idi, Rusiya tamamilə öz mövqelərini itirirdi və prosesdən tamamilə kənarda qalırdı. Ona görə də Rusiya son anda qoşunlarını bölgəyə yeritdi. Bu gün Ermənistan-Azərbaycan münaqişəsində hələlik Rusiya kənarda qalmadığı, dominantlıq etdiyi üçün sülhməramlı adı altında olsa da qoşun yeritmək mərhələsi görünmür. İndiki halda Rusiya status-kvonun dəyişməsini, Qarabağ münaqişəsinin həllini istəmir. Rusiyaya hər zaman alovlandıra biləcək, tərəfləri təxribata çəkə biləcək, istədiyi manevrləri edə biləcək bir konflikt lazımdır. Bu gün danışıqlarda guya müxtəlif həll variantlarından, 5 rayonun, sonra iki rayonun qaytarılmasından, sonra sülhməramlı qüvvələr yerləşdiriləcəyindən söz açılır. Bütün bunlar hamısı boş təbliğat materiallarıdır. Heç nə dəyişməyəcək. 1994-cü ildən bu yana olan status-kvoda nə irəliləyiş, nə də geriləmə olmayacaq. Çünki Rusiyaya Qarabağ konflikti belə lazımdır".

**"O zaman Azərbaycanın yeganə yolunun müharibəni davam etdirmək olduğu meydana çıxmırmı" sualına isə İ.Ağazadə belə cavab verdi:** "Müharibəni davam etdirmək məsələsi də mübahisəli məsələdir. Çünki müharibə faktiki olaraq Rusiyanın nəzarəti altındadır. Düyməni də Rusiya basır, dinamikliyi də Rusiya təmin edir. Əslində Ermənistan-Azərbaycan tərəflərinə təsir göstərən Moskvadır. Danışıqlar mərhələsini pozan, danışıqlar mərhələsində tərəflərin razılığa gəlməsini əngəlləyən də, gərginliyi artıran da Rusiyadır. Ona görə də müharibənin özü də bu gün Rusiyanın nəzarəti altında keçir, hətta tərəflər aparsa belə. Müharibə şərtlərini də Moskva diktə edir. 28 ildir Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün eyni qapı göstərilir - müharibə qapısı. O müharibə qapısında Azərbaycan və Ermənistan tərəfi itirir, genəldə isə Rusiya qazanır. Nəzarət paketi Moskvanın əlindədir. Ona görə də müharibə variantını istisna edirəm. Qarabağa başqa qapıdan girmək lazımdır. Konfliktin həllində maraqlı olan Qərb dövlətlərinin buna dəstəyini almaq, Rusiyasız Cənubi Qafqaz variantının bütün imkanları yoxlanılmalıdır. Türkiyənin regiona daxil olması və NATO-nun, Avropa Birliyinin Cənubi Qafqaza gətirilməsi lazımdır. Bunsuz problemin həllində indiki vəziyyət dəyişməyəcək".

❑ Etibar SEYİDAĞA

# İsraildə səfirliyimizin açılıb-açılmaması müzakirələri-iki fərqli mövqe

## Hikmət Hacızadə: "Səfirlik açmağa lüzum yoxdur"
## Sülhəddin Əkbər: "Artıq İsraildə Azərbaycan səfirliyi açılmalıdır"

**Son aylarda Türkiyə ilə İsrail arasında barışıq yolunda atılan addımlar Azərbaycan-İsrail münasibətlərini də gündəmə gətirib. İndiyə qədər İsraillə ölkəmiz arasında istər siyasi, istərsə də, iqtisadi sahələrdə yaxın əlaqələr mövcuddur.**

Amma buna baxmayaraq, Azərbaycan səfirliyi hələ də yəhudi ölkəsində açılmayıb. Bu isə zaman-zaman bir sıra sualların yaranmasına səbəb olub. Hazırda yaranan situasiya İsraildə nümayəndəliyimizin açılmasına səbəb olan maneələri aradan qaldırıb. Belə ki, indiyə qədər Azərbaycan İran məsələsinə görə tərəddüd edirdi. İsraillə gərgin münasibətləri olan İrana qarşı artıq Qərb tətbiq etdiyi sanksiyaları aradan qaldırıb. Qonşu dövlətlə ABŞ arasındakı münasibətlər hər keçən gün müsbətə doğru gedir. Bütün bunlar Azərbaycanın İsraildə səfirlik açma proseslərini sürətləndirə bilər.




Azərbaycan-İsrail münasibətlərinin nə qədər yaxın olduğu bugünlərdə iqtisadiyyat naziri Şahin Mustafayevin açıqlamalarından sonra bir daha məlum oldu. Nazir bildirdi ki, hazırda Azərbaycanda 37 İsrail şirkəti fəaliyyət göstərir, bu şirkətlər tenderlərdə də iştirak edirlər.

Bundan əlavə, İsraillə dostluq əlaqələrimizin bariz sübutlarından biri də Quba ərazisində yəhudilərin kompakt yaşadıqları "Qırmızı qəsəbə"nin olmasıdır. Təsadüfi deyil ki, Azərbaycan parlamentində yəhudi əsilli deputat da təmsil olunur-Yevda Abramov...

**Azərbaycanın Rusiyadakı keçmiş səfiri, politoloq Hikmət Hacızadə bildirdi ki, İsraildə səfirliyimizin açılmamasına səbəb müsəlman həmrəyliyidir:** "Burada təkcə İran deyil, bütöv İslam dünyasının problemi var. İslam dünyası İsraili qəbul etmir və bu dövlətlə diplomatik əlaqələr qurmur. Xeyli sayda ərəb ölkələri də var ki, onlar İsraili dövlət kimi qəbul etmirlər. Azərbaycan İslam Konfransı Təşkilatının üzvüdür. Bu qurumun bütün üzvləri İsraildən işğal etdiyi əraziləri geri qaytarmağı və müstəqil Fələstin dövlətinin qurulmasını tələb edir. Azərbaycan da İslam ölkəsi kimi onlarla həmrəylik göstərir. Dövlətimiz İsraillə ehtiyatlı davranır. Düzdür, İsraillə yaxın diplomatik əlaqələrimiz mövcuddur. Ancaq onu gözə soxmaq istəmirlər. Səfirliyin açılmamasının başlıca səbəbi müsəlman həmrəyliyidir. Türkiyə ilə İsrail arasındakı barışıq məsələsinin müsbət sonluqla nəticələnəcəyindən sonra Azərbaycanın İsraildə səfirlik açıb-açmayacağı ilə bağlı nəsə deyə bilmərəm. Əslinə qalsa, səfirliyi açmağa lüzum da yoxdur. Əlaqələrimiz var, ticarət, yardım gedir, biz ora, onlar da bizə gəlirlər. Bu baxımdan səfirliyin açılmasına elə də ehtiyac yoxdur. Bu, İsrail üçün daha yaxşı olardı. Amma Azərbaycan üçün bu önəmli deyil. Səfirlik aça da bilərik, açmaya da. Burada bir facıə yoxdur".

**Milli təhlükəsizlik nazirinin sabiq birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər İsraildə Azərbaycan səfirliyinin açılmasının tərəfdarı olduğunu söylədi:** "Həm Türkiyə, həm də Azərbaycanın İsraillə strateji tərəfdaşlığının tərəfindəyəm. İsrail regionda rol oynayan mühüm dövlətlərdən biridir. İsrailə ayrıca götürülmüş dövlət kimi yox, ümumdünya yəhudi dövləti kimi baxmaq lazımdır. Bu çərçivədə qiymət vermək lazımdır. Burada yəhudi lobbisinin ABŞ, Avropa və dünyada oynadığı rol nəzərə alınmalıdır. İsraillə Azərbaycan arasında geniş əlaqələr mövcuddur. Bu əlaqələrin böyük də potensialı var. Onu da nəzərə almaq lazımdır ki, müxtəlif bəhanələrlə nə ABŞ, nə Avropa Birliyi, nə də NATO Azərbaycanla hərbi cəhətdən əməkdaşlıq etmirlər. Bu baxımdan İsrailin önəmi daha da artır. İsrailin önəmi Azərbaycan üçün strateji diplomatik, lobbiçilik, Qarabağ münaqişəsinin həlli baxımdan çox böyükdür. İsrail yüksək texnologiyalar ölkəsidir. Azərbaycanın demokratikləşməsi ilə yanaşı, müasir sənayeləşməsi də mühüm məsələlərdən biridir. Sənayeləşmə baxımından da İsrail ölkəmizə ciddi yardım göstərə bilər. Eyni zamanda İsrail səhiyyə, turizm baxımından da təcrübəsi olan dövlətdir. Bütün bunlara görə İsraillə Azərbaycan arasında strateji tərəfdaşlığın tərəfindəyəm. Nəzərə alsaq ki, Türkiyə-İsrail münasibətlərinin normallaşma mərhələsinin sonundayıq. Demək olar ki, hər iki ölkə arasındakı danışıqlar başa çatıb. Bu baxımdan gecikmiş olsa da, artıq İsraildə Azərbaycan səfirliyi açılmalıdır".

❑ Cavanşir ABBASLI



# Şəxsiyyətsiz gəlinlər

Zamin HACI
zaminhaci@gmail.com

**Rus saytlarından birində onların deputatxanası olan Dumanın üzvləri üçün satirik məsləhətlər verilmişdi, biri belə idi: "Əgər məşhurlaşmaq istəyirsinizsə, nəsə idiot qanun layihəsi təklif edin. Örnək üçün, çap mətbuatında ironiyanın qadağan edilməsi, dövlət himninin ksilofonda çalınmasına qadağa qoyulması, ya da Rusiya futbol yığmasının məşqçisi Fabio Kapelloya ödənilmiş pulların dövlət büdcəsinə qaytarılması haqda qanunlar ola bilər. Tam əmin olun, bu təkliflər sizin ideyanın azı 2-3 gün internetdə müzakirəsinə səbəb olacaqdır".**

Mənə elə gəlir bizim deputatxana üzvü Hadı Rəcəbli məhz o prinsip üzrə hərəkət edir. Vaxtaşırı nəsə əcaib bir söhbət atır, millət bundan danışır, dərdimiz-sərimiz yadımızdan çıxır. Bir ara demişdi müəllimlər getsin bənnalıq eləsin, əlavə pul qazansın. Sonra dedi camaata ünvanlı sosial yardım əvəzinə qoyun verək. Bir gün yatdı-durdu, qərara gəldi ki, camaat soğan əksə yaxşı yaşayar... Yox, bunu, deyəsən, ayrı deputat - Aqil müəllim demişdi, ancaq nə dəxli? Hamısı bir kreslonun qırağıdır. Hamısı bir düymədən su içmişdir. Yaxşı deputatın səsi ayrı cür çıxmaz, xorla olmalıdır.

Srağagün Hadı müəllim basdı düyməni, aldı görək yenə nə dedi. Sitat: "Çox təəssüf ki, hələ də evə gələn gəlinlərin qab yuya, yumurta bişirə bilmədiyini görürük. Bəzi oğlanlar da var ki, əlini əlinin üstünə qoyub oturub, ailənin sahibliyi qadındadır, ailəni xanım idarə edir. Biz Milli Məclisin əlaqədar komitələri kimi bu problemlərin aradan qaldırılması istiqamətində işlər görməliyik". Sitatın sonu.

Hazırda millət bu söhbəti müzakirə edir, düşünürük görəsən Hadı müəllim neyləmək fikrindədir. Şanlı deputatxanamız doğrudanmı "Gəlinlərin qab yuması haqda Azərbaycan Respublikasının qanunu" adlı hüquqi sənəd qayıra bilər? Yaxud yumurta bişirməyi bacarmayan qızların ərə getməsinin qadağan edilməsi mümkündür? Təsəvvür elə, VVAQ şöbələrində gəlinlər toydan bir gün qabaq imtahan komissiyasının qabağında qab yuyur, yumurta bişirir, bəy də bayırda həyəcanla gözləyir. Daha doğrusu, bəy də başqa otaqda imtahan verir, əlini əlinin yox, ayağının üstünə aşırtmaq pozası alır. Əks halda, Hadı müəllim "bu problemlərin aradan qaldırılması üçün iş görməliyik" deyərkən nəyi nəzərdə tutur? Bu qədər bekarçılıqdansa özü də bənnalıq eləsə, Lənkərana gedib kələm əksə, daha faydalı olmazdımı?

Ancaq mən Hadı müəllimi və o cümlədən başqa "Bıdı müəllimlər ənd KO" deputatxana yapistləri şirkətini qınamaq fikrindən uzağam. Ölkəmizdə hər yer belədir. Hara baxsan millətə qab yumağın önəmi, soğanın faydaları, qoyunun qığları haqda məsləhətlər verən bir sürü adam görmək mümkündür. Bu adamlar hətta bekarçılığın Milli Elmlər Akademiyasını yaradıblar. Səhər tezdən şəhərin müxtəlif istiqamətlərindən yüzlərlə avara şirinçay içib durub gedir müxtəlif elmi institutlarımıza, axşama qədər nərd atır, corab toxuyur, peysərini qaşıyır, qarnını sığallayır və gün batandan sonra metronun "Elmlər Akademiyası" stansiyasında bir-birinin belini tapdaya-tapdaya dağılışırlar. Bəlkə 80 ildir o akademiya fəaliyyətdədir, indiyə qədər ən böyük elmi kəşfləri mələyin uçma sürətini tapmaq, yarpaq dolmasına qatığı hansı miqdarda sürtmək və dastanlarımızda əğyar surətinin yarla münasibətlərində intim detalların mentalitetimizə uyğunluğu kimi mövzularda olmuşdur.

Elə son bir ayda AMEA Fəlsəfə, Hüquq və Sosiologiya İnstitutunda gedən elmi davanın predmetinə baxsanız haqlı olduğumu görərsiniz. Müzakirə onun üstündə gedir ki, institutun əməkdaşlarından birinin şəxsiyyət vəsiqəsi saxtadır, yoxsa gerçəkdir. Saxtakarlıqda ittiham edilən yoldaş şəxsiyyət vəsiqəsinin surətini redaksiyaya təqdim edib, deyir mənə qarşı iddia qaldıranın öz şəxsiyyət vəsiqəsi saxtadır. Yəni belə çıxır ki, orda hamının sənədləri qarşılıqlı saxtadır. İnşallah, bu alimlər sənədlərini təsdiqləyib şəxsiyyət olandan sonra elmi işlərə də girişəcəklər.

Az qala yadımdan çıxmışdı, bir iddia da var ki, orda işçinin boyu sənəddə göstərilən kimi 170 santimetr deyildir. Bütün bu zırıltını isə bədbəxt, yetim azərbaycanlı dövlət büdcəsindən maliyyələşdirir.

# "Napoleon deyirdi ki, müharibəni süngü ilə yox, qızılla udurlar"

## Qüdrət Həsənquliyev: "Xankəndində daş-daş üstündə qalmayacaq"

**"Biz hazırda diqqəti daha çox Rusiya ilə danışıqlara yönəltməliyik. Çünki bu proseslərdə Ermənistan önəmli rol oynamır. Ermənistan güzəştə getməsə, Rusiya üç gün yox, bir həftə gözünü yumacaq və biz bu məsələni başqa müstəvidə yoluna qoyacağıq".**

Milli Məclisin deputatı Qüdrət Həsənquliyev bu fikirləri "Yeni Müsavat"a açıqlamasında deyib. Qarabağdakı toqquşmalardan sonra düşmən ölkədə hökm sürən anti-Rusiya ovqatını və Moskvanın sükutunu dəyərləndirən deputatın fikrincə, Rusiya da çox gözəl başa düşür ki, Ermənistanda Rusiya əleyhinə müəyyən çağırışlarda məqsəd nədir: "Ermənistan istəsə də belə, Rusiyanın orbitindən kənara çıxa bilməz".

Q.Həsənquliyev Ermənistanla danışıqlarda ərazi mübadiləsi təşəbbüsü ilə çıxış etməyi də mümkün sayır: "Mən hesab edirəm ki, Azərbaycan Ermənistanla ərazi mübadiləsinə də gedə bilər. Yəni Dağlıq Qarabağın Ermənistana verilməsi qarşılığında Zəngəzurun yenidən Azərbaycana qaytarılması Naxçıvanla Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunmasına gətirib çıxara bilər. O halda bizim Gürcüstana da ehtiyacımız azalar. Biz birbaşa Türkiyəyə çıxış əldə edə bilərik, Qars-İqdır dəmir yolu ilə Türkiyə üzərindən birbaşa Qara dənizə çıxmaq imkanı qazanarıq. Azərbaycan bu məsələni də gündəmə gətirə bilər. Amma əminəm ki, Azərbaycan bir santimetr torpağını belə Ermənistana güzəştə getməyəcək. Bizim ağıllı davranışlarımız, inadkarlığımız və tələbkarlığımız öz sözünü deyə bilər. Yəni birmənalı mövqe sərgiləsək ki, Azərbaycanın ərazi bütövlüyünə, beynəlxalq hüquqa hörmət olunmalıdır, o halda biz ərazi bütövlüyümüzü bərpa edə bilərik".

**Deputatın sözlərinə görə, Azərbaycan xalqını müharibəyə hazırlamaq lazımdır:** "Böyük itkilərin olacağı təqdirdə xalqımızın bunu anlayışla qarşılaması üçün müəyyən iş aparılmalıdır. 1941-45-ci illərdə Azərbaycanın əhalisi 3 milyona yaxın idi. Amma o vaxt biz 300 min itki verdik, özü də Rusiyanın, Avropanın çöllərində. Amma bütün dünya bilməlidir ki, biz nə qədər itki versək də, torpaqlarımızın təsliminə razı olmayacağıq".

**Q.Həsənquliyev daha ciddi təhlükələrə hazır olmağı zəruri sayır:** "Biz hətta bunu da gözümüzün qabağına almalıyıq ki, sabah Ermənistan-Rusiya cütlüyünə qarşı da vuruşa bilərik. Ancaq indi bu müharibə Rusiyaya lazım deyil. Çünki Ukraynada müharibə hər an alovlana bilər. Moldovada, Gürcüstanda vəziyyət kövrək olaraq qalır. Rusiya ilə Azərbaycan arasına pis-yaxşı qarşılıqlı hörmətə əsaslanan ən azı prezidentlər səviyyəsində anlaşma var. Sonuncu hadisələrdə də gördük ki, Rusiya özünü sözün həqiqi mənasında pis aparmadı. Ona görə də biz əsas diqqəti Rusiya ilə münasibətlərə yönəltməliyik. Biz çalışmalıyıq ki, bu konflikdə Rusiyanın maraqları təmin olunsun, nəinki Ermənistanın. Bunun üçün də biz Lavrovun dilə gətirdiyi həm Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü ola bilərik, həm də Avrasiya İqtisadi Birliyinin. Ancaq birmənalı şəkildə sonuncu erməni əsgəri Azərbaycan torpaqlarından çıxandan sonra. Yəni söhbət sülh sazişinin imzalanmasından gedir. Bir sülh sazişi imzalanır, orada Ermənistan Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə tanıyır. Belə bir saziş imzalanmadan hansısa sülhməramlının - istər ingilis, istər fransız, istər rus olsun - Azərbaycan ərazilərinə buraxılması birmənalı şəkildə Dağlıq Qarabağın itirilməsi deməkdir. Bunun başqa bir adı yoxdur".



**"Gözümüzün qabağına almalıyıq ki, sabah Ermənistan-Rusiya cütlüyünə qarşı vuruşa bilərik"**

**Q.Həsənquliyev hesab edir ki, cəbhədə baş verən son hadisələr ölkəmizdə islahatlar məsələsini arxa plana keçirmədi, hətta bir az da aktuallaşdırdı:** "Biz gördük ki, son əməliyyatlarda üstünlüyü məhz ölkəmizin iqtisadi gücü hesabına əldə etmişik. Məhz bu gücün hesabına müasir silahları ala, müasir ordu qura bilmişik. Yəni bundan sonra ordunun daha da gücləndirilməsi üçün güclü iqtisadiyyat lazımdır. Vaxtilə Napoleon kimi böyük sərkərdə deyirdi ki, müharibəni süngü ilə yox, qızılla udurlar. Ona görə də vaxtilə o, Fransanın böyük ərazilərini Amerikaya satdı ki, müharibəni aparmaq üçün qızıl əldə etsin. Bu baxımdan Azərbaycanda sürətlə və ardıcıl şəkildə iqtisadi və məhkəmə islahatları, eyni zamanda siyasi islahatlar aparılmalıdır. Ordunu müasir silahlarla təchiz edə, maliyyələşdirə bilməsək, qələbə qazanmağımız da çox çətin olar. Bunu isə yalnız və yalnız güclü iqtisadiyyat təmin edə bilər. Baxın, İsrail 8 milyonluq balaca ölkədir, Azərbaycandan da kiçikdir, amma yeri gələndə bütün dünyaya meydan oxuyur, hətta 80 milyonluq, özündən on dəfə böyük İrana da. Hərbi gücü və müttəfiqləri hesabına. Azərbaycan da bu istiqamətdə çalışmalarını artırmalıdır".

**Deputat hesab edir ki, indiki mərhələdə Azərbaycan həm Pakistan, həm də Türkiyədən müasir silahlar almalıdır:** "Təbii ki, şimal qonşumuzla da hərbi əməkdaşlığı dayandırmamalıyıq. Dediyim kimi, Qarabağ məsələsinin böyük itkilərdən yayınmaqla həll olunması naminə biz Rusiya ilə də əməkdaşlığımızı, ondan silah alışını davam etdirməliyik. Məsələn, Rusiya Ermənistana aşağı faizlə 250 milyon dollar kredit verir ki, ondan silah alsın. Ermənistan bu vəsaiti 15 ilə ödəyəcək. Bu gün Türkiyənin imkanı var ki, Azərbaycana 250 yox, 500 milyonluq müasir silahlar versin. Biz bilirik ki, Türkiyənin NATO standartlarına cavab verən çox güclü, müasir raket sistemləri var. O sistemləri almaq və Dağlıq Qarabağ ətrafında elə bir güc yaratmaq lazımdır ki, erməni başa düşsün ki, bu sistemlər işə düşəcəyi təqdirdə, onları kimin müdafiə etməsindən asılı olmayaraq, Xankəndində daş-daş üstündə qalmayacaq. Hesab edirəm ki, Azərbaycan belə bir təşəbbüslə mütləq və mütləq qardaş Türkiyəyə açıq formada müraciət etməlidir. Eyni zamanda Pakistandan da müasir silahlar almaq olar. Bu ölkənin də çox güclü hərbi sənayesi var və Pakistan hər dəfə bildirib ki, Azərbaycana yardım göstərməyə hazırdır. Həmçinin İrandan da silah almaq olar. İranda da hazırda müasir silahlar, raket kompleksləri var. Həm də dostu sınamaq lazımdır, baxaq, görək, bunların hansı uzunmüddətli, yaxud hansı şərtlərlə bizə o silahları verir".

❑ **Elşad PAŞASOY**

# ABŞ dövlət katibi köməkçisinin müavini Azərbaycana gəlib

**ABŞ dövlət katibinin iqtisadi və biznes məsələləri üzrə köməkçisinin məsul müavini Kurt Tonq aprelin 14-də Azərbaycana gəlib.**



ABŞ-ın Azərbaycandakı səfirliyindən APA-ya verilən məlumata görə, K. Tonq Dövlət Departamentinin qlobal iqtisadi səylərinə dəstək verərək, tərəfdaşlarla ticarət, maliyyə, telekommunikasiya, nəqliyyat, iqtisadi sanksiyalar, kommersiya imkanları və digər məsələləri müzakirə edir. O, bu vəzifədə 2014-cü ilin iyul ayından çalışır.

K. Tonq səfər çərçivəsində Azərbaycan hökuməti rəsmiləri, Azərbaycan və Amerika biznes nümayəndələri, azərbaycanlı tələbələrlə görüşərək Azərbaycanda iqtisadi vəziyyət, islahatlar və iqtisadiyyatın diversifikasiyası sahəsində aparılan işlərlə tanış olacaq.

O, həmçinin ABŞ-ın Azərbaycanın iqtisadi inkişafına dəstəyinin təkmilləşdirilməsi imkanlarını da müzakirə edəcək.

K. Tonq Azərbaycana ilk dəfə səfər edir.

YENİ MÜSAVAT
N 80 (6401) 15 aprel 2016

# Qarabağ münaqişəsi ətrafında yeni situasiya

**Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş verən aprel toqquşmasından sonra Qarabağdakı status-kvonun saxlanmasının mümkünsüzlüyü artıq şübhə doğurmur. 4 günlük müharibə "Qarabağda hər an daha böyük müharibə başlaya bilər" proqnozlarının heç də quru söz olmadığını sübut etdi və bundan sonra beynəlxalq aləm 1994-cü ilin atəşkəs razılaşmasının heç də əbədi olmadığını anladı.**




# "İlin sonunadək 5 rayon azad olunacaq" - şok iddia

## Tərəflərə təqdim olunan məxfi sənədlərin bəzi detalları üzə çıxıb: Füzuli, Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları və Laçının 13 kəndi azad edilir; Kreml bölgədə təkbaşına söz sahibi olduğunu isbatlamaq istəyir; **ekspert:** "Ermənistan diqqəti yayındırmağa və danışıqları uzatmağa çalışır..."

Son məlumatlar və müşahidələr göstərir ki, prosesdə əsas yer alan Rusiya nəinki münaqişənin nizamlanmasını tərəflərə həvalə etmək fikrindədir, hətta özünü regionda alternativsiz söz sahibi olaraq təqdim edir. Elə Dağlıq Qarabağ ətrafındakı rayonların azad olunmasını özündə ehtiva edən "Lavrov planı"nın gündəmə gəlməsi də bunu isbatlayır. Dünən isə **Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov** sensasion sayıla biləcək açıqlama ilə çıxış edib.

"Ermənistan rəhbərliyi yaxşı başa düşür ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinə müdaxilə etmək niyyətində deyil. Çünki Rusiya rəhbərliyi Azərbaycanın Ermənistana qarşı ərazi iddiası olmadığını yaxşı anlayır. Azərbaycan işğal altındakı ərazilərini azad etmək istəyir",- deyə Markov bildirib. **Rusiyalı politoloq Dağlıq Qarabağla bağlı planın yaxın vaxtlarda işə düşəcəyini də söyləyib:** "ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin də razılaşdığı, vaxtilə Kazanda təklif olunan formul yaxın vaxtlarda tətbiq olunacaq. Həmin formula əsasən ilk olaraq Ermənistanın işğalı altında olan 5 rayon Azərbaycana geri qaytarılacaq. Azərbaycan həmin ərazilərə vaxtilə oradan məcburi köçkün düşmüş vətəndaşlarını yerləşdirəcək. Daha sonra isə işğal altındakı iki rayon və Dağlıq Qarabağın qaytarılması məsələsinə baxılacaq. Kazanda təklif olunan bu formulun bu hissəsi müəyyən müddət çəkəcək. Dmitri Medvedyevin prezidentliyi dövründə Kazanda təklif olunan bu formulun əsas prinsipləri bundan ibarətdir. Ermənistan ilkin mərhələdə 7 rayondan 5-ni geri qaytarır. Həmin rayonlar regionda sülhə təminat vermək üçün hərbisizləşdirilir. Bütün bunların qarşılığında Azərbaycanın Ermənistana etdiyi güzəşt ona qarşı olan blokadanı aradan qaldırması olur".

Qeyd edək ki, bir neçə gün bundan əvvəl Rusiyanın problemi "5+2 formulu" ilə azad etmək niyyət mətbuata sızmışdı. Lakin o zaman bəzi təhlilçilər bunu "Azərbaycan üçün tələ" adlandırdı. Rusiyanın bu arada birdən-birə nədən hərəkətə keçməsi suallar yaradır. **Ancaq Almaniyanın Ermənistandakı səfiri Matias Kislerin son açıqlaması müəyyən ehtimallar üçün ipucu yaradır. Diplomat deyib ki, Almaniya Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair 7 bənddən ibarət sənəd təklif edir. "Almaniya XİN-i 7 bənddən ibarət daxili sənədi dövriyyəyə buraxıb" deyən səfir onu da vurğulayıb ki, proqram münaqişənin həll yollarını nəzərdə tutmur, çünki müvafiq mandata ATƏT-in Minsk Qrupunun həmsədrləri malikdirlər.** "Buna baxmayaraq, sənəddə bir neçə mühüm müddəa öz əksini tapıb, onların arasında atəşkəsin saxlanılması ən əsas bənddir" - o əlavə edib.

Almaniyanın ATƏT-in fəaliyyətdə olan sədri kimi münaqişənin həlli prosesinə qatılması sözsüz ki, Rusiyanı qane edə bilməzdi. Fakt budur ki, hazırda Qərbin ən yaxın müttəfiqlərindən biri olan Almaniyanın Rusiya ilə münasibətləri kifayət qədər soyuqdur və belə bir situasiyada Kreml Almaniyanın Qarabağ prosesində moderatorluğuna imkan verməz. Çox güman ki, Rusiya Almaniya kansleri Angela Merkelin 2015-ci ilin yanvarındakı mövqeyini unutmayıb. O zaman Berlində prezident İlham Əliyevlə görüşdən sonra keçirilən brifinq zamanı xanım Merkel Qarabağ cəbhəsində atəşkəsin tez-tez pozulmasından danışarkən demişdi ki, Rusiya və Ermənistan bəzi məsələləri birgə həyata keçirirlər.

Yeri gəlmişkən, aprel döyüşlərindən sonra Almaniya kansleri Ermənistan prezidenti Serj Sərkisyanı qəbul etdi və bu görüşdən sonra keçirdiyi brifinqdə Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu bildirdi. Görünən budur ki, Almaniya beynəlxalq hüquqa hörmət edilməsi mövqeyindədir və bu, nə Rusiya, nə də ələlxüsus Ermənistanı qane etmir.

Şübhəsiz, elə buna görədir ki, məhz Sərkisyanın uğursuz Almaniya səfərindən sonra Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün aparılan danışıqların bəzi detallarını açıqladı və bildirdi ki, Kazan danışıqlarında əldə edilmiş razılığı özündə əks etdirən sənədlər hələ ki arxivə göndərilməyib və masa üzərindədir. Nalbəndyanın Medvedyevin təşəbbüsü ilə keçirilən görüşdəki razılaşmanı xatırlaması səbəbsiz ola bilməz. Yayılan məlumatlara görə, 2011-ci ildə Kazanda masaya qoyulmuş sənədə əsasən, əvvəlcə tənzimlənmənin əsas prinsipləri imzalanmalı, daha sonra isə Rusiya, ABŞ və Fransanın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan sülh sazişi üzərində işə başlamalıdırlar. Həmçinin İrəvan Dağlıq Qarabağ ətrafındakı rayonlardan işğalçı qoşunlarını çıxarmalıdır. Bu ərazilərə Füzuli, Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları və Laçının 13 kəndi daxildir. Həmin ərazilərdə təhlükəsizliyin qorunması beynəlxalq sülhməramlı qüvvələrə həvalə olunur. Ardınca isə Laçın rayonunda Ermənistanla Qarabağı birləşdirən dəhliz yaradılır.

Bu təklifləri bəzi ekspertlər məqbul saymaqla yanaşı, hesab edirlər ki, Azərbaycan Laçın dəhlizinin əvəzinə, Mehridən Naxçıvanı Azərbaycanın digər əraziləri ilə birləşdirəcək dəhliz tələb edə bilər. Azərbaycan tərəfi bildirir ki, prinsiplərə görə, Dağlıq Qarabağın hüquqi statusu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində müəyyən edilir. Lakin Ermənistan tərəfi iddia edir ki, prinsiplərdə Dağlıq Qarabağa öz müqəddəratını təyin etmək hüququ verilməsi öz əksini tapıb.

Bununla Ermənistan Almaniyanın 7 maddəlik razılaşma sənədini deyil, Kazan təkliflərini müzakirə üçün qəbul etdiyinə eyham vurur, şübhəsiz ki, elə Kremlin işarəsi ilə... Elə Nalbəndyanın "Müxtəlif ideyalar var. Amma əsas odur ki, Qarabağ heç zaman Azərbaycanın tərkibində ola bilməz" sözləri həm də Azərbaycanın ərazi bütövlüyünü prioritet sayan Almaniyaya cavabdır. Hansı ki, Merkel Qarabağ münaqişəsinin həllinin əsasında Helsinki Yekun Aktının üç əsas prinsipinin durmasını önəmli saymışdı. Buraya millətlərin öz müqəddəratını təyin etməsi, ərazi bütövlüyü və güc tətbiqindən imtina daxildir.

Beləcə, "ölü nöqtə"dən tərpənmiş kimi görünən Qarabağ prosesində ayrı-ayrılıqda - Almaniyanın və Rusiyanın vasitəçiliyi ilə iki sənəd masaya qoyulub. Rusiyanın prosesdə təkbaşına rol oynamaq istəyini nəzərə alsaq, deyə bilərik ki, Almaniyanın təkliflərinə Moskvanın müqaviməti qaçılmazdır. Necə ki, 2014-cü ilin payızında Fransa Azərbaycan və Ermənistan prezidentlərini görüşdürəndən sonra cəbhədə vəziyyət gərginləşmişdi.

***

**Bəs Almaniyanın vasitəçiliyi Qarabağ məsələsində nəyisə dəyişə bilərmi? Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"ın sualının cavabında qeyd etdi ki, Almaniyanın təklifləri "Madrid planı"ndan fərqlənmir:** "Yeni ilk növbədə Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır. İndi vacib olan Berlinin bu istiqamətdə danışıqları intensivləşdirməsidir. Çünki Berlin gözləmə mövqeyinə keçsə və Azərbaycanla Ermənistan rəhbərliyi arasında təmaslara başlamasa, Almaniyanın xarici işlər naziri Bakı və İrəvana səfər etməsə, həmin 7 maddəlik təkliflər paketi də unudulacaq. Halbuki Almaniyanın Azərbaycanın ərazi bütövlüyündən çıxış etdiyi bəllidir. Təsadüfi deyil ki, 1990-cı illərin ortalarında ATƏT-in Minsk Qrupuna Avropadan həmsədr axtarılarkən, rəsmi Bakı Fransaya yox, Almaniyaya üstünlük verirdi. Almaniyanın Ermənistandakı səfirinin "Ermənistan xarici investisiyalarda maraqlıdırsa, qonşularıyla normal münasibətləri bərpa etməlidir" sözləri də Berlinin rəsmi İrəvana mesajıdır. Yəni almaniyalı diplomat demək istəyib ki, Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmadan gələcəyi yoxdur. Ermənistanın gələcəyinin olması üçün isə Azərbaycanın işğal altında saxladığı torpaqları boşaltması vacibdir".

**E.Şahinoğlu qeyd etdi ki, beynəlxalq aləm işğalçı ilə işğala məruz qalan dövlətə bərabərlik işarəsi qoymaq siyasətini davam etdirdikcə, münaqişə danışıqlar yolu ilə həll edilməyəcək:** "Ermənistanı Dağlıq Qarabağ ətrafındakı ən azı, 5 rayonu boşaltmağa məcbur etmək lazımdır. Bunun başqa alternativi yoxdur. Ermənistan hakimiyyəti bunu anlamayanadək bölgədə hərbi toqquşmalar da davam edəcək, hər iki tərəfin itkiləri də artacaq. Azərbaycan mümkün itkilərə psixoloji baxımdan hazırdır, Ermənistanın isə yeni itkilərə hazır olduğunu vurğulamaq çətindir. Bunu Ermənistan prezidenti Serj Sərkisyan da anlayır. Təsadüfi deyil ki, o, qəfildən Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyanla görüşdü. Doğrudur, bu görüşün nəticəsi olaraq Levon Ter-Petrosyan cəmiyyəti birliyə çağırdı. Ancaq bir müddət keçdikdən sonra Ermənistan müxalifətinin və cəmiyyətin Sərkisyana qarşı təzyiqləri artacaq. O ki qaldı Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyanın Kazan sənədini xatırlatmasına, bu, İrəvanın növbəti hiyləsidir, məqsəd diqqəti yayındırmaq və yenidən danışıqları uzatmaqdır. Məsələ burasındadır ki, Kazan sənədini arxa plana atan elə İrəvan olmuşdu. Kazan sənədinin ortaya çıxmasından 5 il keçib, ortada irəliləyiş yoxdur. Çünki İrəvan istənilən plandakı bütün bəndləri Dağlıq Qarabağın statusunu müəyyənləşdirəcək mexanizmə bağlamaq istəyir. Azərbaycan isə heç bir halda bu cür həllə razılaşmayacaq. Əvvəl rayonlar boşaldılmalı, qaçqınlar geri dönməli, bundan sonra statusla bağlı danışıqların başlaması mümkündür".

Rusiyanın hərəkətə keçməsini zəruri edən digər bir faktı da xatırladaq: Azərbaycan prezidentinin Almaniyaya səfəri nəzərdə tutulub. Xanım Merkel Sərkisyanla birgə keçirdiyi brifinqdə demişdi ki, Azərbaycan prezidentinin Almaniyaya səfəri iyun ayında gerçəkləşəcək. Kansler səfər zamanı Qarabağ müzakirələrinin olacağını anons edib. Ancaq hələ o görüşə xeyli var, Qarabağdakı kövrək sülh isə hər an müharibə ilə əvəzlənə bilər. Deməli, yaxın zamanlarda Qarabağla bağlı Almaniya və Rusiyanın rəqabətinin şahidi olacağıq. Reallıq bundan ibarətdir ki, Azərbaycan son əməliyyatlarla danışıqlarda üstün mövqe əldə edib...

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 80 (6401) 15 aprel 2016

# 45 milyardlıq proje təhlükədə - TANAP və TAP dondurula bilər

## “The Washington Times” yeni Qarabağ müharibəsinin Avropa energetik təhlükəsizliyini də sual altına alacağı haqda xəbərdarlıq elədi; **nüfuzlu nəşr:** “ABŞ Ermənistanı geri çəkilməyə məcbur etməli, Bakını dəstəkləmək üçün təcili və qətiyyətli addımlar atmalıdır...”

**Dağlıq Qarabağ münaqişəsi zonasında qısamüddətli müharibə sülh danışıqlarında irəliləyişi labüd edib. Konfliktə və prosesə cəlb olunmuş qüvvələrin hamısı artıq bu qaçılmazlığı qəbul edir. Ancaq irəliləyişə necə nail olmalı, əgər hələ ki yenə ümumi bəyanatlar və sülhə çağırışlar ortadadırsa?**

Məsələ də ondadır ki, ən əvvəl işğalçı Ermənistana ciddi təzyiqlər edilməyincə prosesdə sıçrayış əldə olunması qeyri-mümkün görünür. Bunu isə Rusiya və müəyyən mənada Qərb, amma yenə Rusiyanın vasitəsi ilə edə bilər. Əks halda, ekspertlər bir şeydə əmindirlər: atəşkəs uzun sürməyəcək və növbəti genişmiqyaslı müharibə alovlanacaq. Analitiklər bu proqnozu həm də qarşıdan hərbi kampaniya üçün əlverişli yay mövsümünün gəlməsi ilə izah edirlər.

***

“ABŞ Dağlıq Qarabağ məsələsində Azərbaycanı dəstəkləmək üçün təcili və qətiyyətli addımlar atmalıdır”. Musavat.com-un məlumatına görə, bu barədə Beynəlxalq Əlaqələr üzrə İsrail Demokratiya İnstitutunun direktoru, “Jerusalem Post” sabiq redaktoru və “Baltimor Jewish Times” nəşrinin sabiq baş redaktoru Mayana Yafe-Xoffmanın nüfuzlu “The Washington Times” qəzetində dərc olunmuş məqaləsində deyilir. Müəllifin sözlərinə görə, “ABŞ Konqresi başa düşməlidir ki, Azərbaycan və Ermənistan arasında atəşkəs davamlı deyil və iki ölkəni tam barışdırmağın zamanı çatıb”.

**Analitik münaqişə ətrafındakı hazırkı status-kvonu məqbul saymadığını yazıb:** “Əvvəla, erməni işğalı nəticəsində bir milyona yaxın azərbaycanlı öz yurd yerlərini tərk edib. İkincisi, BMT Təhlükəsizlik Şurası Azərbaycanın Dağlıq Qarabağ üzərində hüququnu tanıyıb. Ermənistan isə konfliktə dair qəbul edilən qətnamələri qulaqardı etməkdə davam edir. Əlləri yanında oturan ABŞ isə zəif görünür və öz müttəfiqi Azərbaycana qarşı laqeydlik nümayiş etdirir”.




**Məqalədə daha sonra deyilir:** “Üçüncüsü, indiki atəşkəs rejimi hətta bir neçə ay çəkə bilər. Status-kvonun saxlanması vulkanın yanında durub onun nə vaxt püskürəcəyini gözləmək kimi bir şeydir. Dördüncüsü, Azərbaycan Avropa bazarlarına yeni qaz tədarükünü təmin edəcək 45 milyardlıq Cənub Qaz Dəhlizi layihəsində ən mühüm oyunçudur. Bu layihə dünya neft və qaz sənayesində indiyədək həyata keçirilmiş layihələr içərisində ola bilsin ən böyüyü və iddialısıdır”.

**Məqalə müəllifi bu yerdə erməni komandirlərini indiyədək Azərbaycanın neft-qaz infrastrukturunu dəfələrlə hədələdiklərini yada salıb.** “Bu yaxınlardakı döyüş əməliyyatları da qaz kəmərlərinin yaxınlığında gedirdi. Əgər kəmərlər hücuma məruz qalsa, bu, işlərin kəskin ləngiməsinə və 7 Avropa hökuməti və 11 şirkət tərəfindən maliyyələşdirilən layihənin dayanmasına gətirə bilər. Bundan başqa, o halda Avropa energetik təhlükəsizliyi də təhlükə altına düşəcək” - qeyd edib siyasi şərhçi.

**Müəllif ABŞ-ın müdaxiləsini labüd edən daha bir faktor kimi, indiki status-kvonun qalacağı təqdirdə Moskvanın regionda nüfuzunun artacağını göstərir. Son 4 günlük savaşın motivindən danışan ekspert yazır:** “Bir sıra ekspertlər inanır ki, Kreml Rusiyanın vassalı və marionet ölkəsi Ermənistan qarşısında vəzifə qoyub: prezident o məqamda Vaşinqtonda olan və Nüvə Sammitində iştirak edən İlham Əliyevi xəbərdar eləmək üçün ilk zərbəni vurmaq”.

Müəllif hesab edir ki, Moskva İrəvanın tərəfindədir. “Rusiya Ermənistanı tam ələ alıb” - ardınca o vurğulayıb. İsrailli analitikin qənaətincə, region daha bir gərginlik ocağının yaranmasına imkan verməməlidir.

**ABŞ Konqresinə müraciət edən Xoffman daha sonra yazır ki, artıq zaman yetişib ki, Amerika məsələyə müdaxilə eləsin, Rusiyanı qabaqlasın və bölgədə ədalət təmin olunsun.** “Ermənistanı öz qoşunlarını bölgədən çıxarmağa məcbur eləmək, azərbaycanlı köçkünlərə öz yurd yerlərinə qayıtmağa imkan yaratmaq lazımdır. Konfliktin dinc və daimi nizamlanması üçün Minsk prosesini yenidən təşkil eləmək vacibdir” - sonda müəllif əlavə edib.

***

Qeyd edək ki, Birləşmiş Ştatların Qarabağ məsələsində passivliyini bugünlərdə Amerikanın Azərbaycandakı sabiq səfiri və Minsk Qrupunun keçmiş həmsədri Metyu Brayza, amerikalı tanınmış politoloq Ariel Koen də ciddi tənqid ediblər. Qarabağ məsələsinə ABŞ və Qərbin laqeydliyinin davam edəcəyi, təşəbbüsün əldən buraxılacağı təqdirdə bütövlükdə bölgənin ABŞ üçün itirilə biləcəyi haqda xəbərdarlıq ediblər.

Onların hər ikisi Ağ Ev başçısının təşəbbüsü ələ alaraq Azərbaycan və Ermənistan prezidentlərinin Vaşinqtonda birbaşa görüşünü təşkil eləməsinin vacibliyini qeyd ediblər. Koen isə Nüvə Sammitinin bundan ötrü yaxşı bir fürsət, fəqət Vaşinqton tərəfindən buraxıldığını vurğulamışdı.

O ki qaldı erməni tərəfinin kəmərləri hədələməsinə, bu doğrudan da ciddi təhlükədir. Son olaraq belə bir açıq hədə ilə 4 günlük müharibə zamanı Ermənistan müdafiə nazirinin müavini, Şuşanın işğalına rəhbərlik eləmiş general Arkadi Ter-Tadevosyan çıxış eləmişdi. Güney Qafqazdan keçən kəmərlərin və reallaşacaq böyük layihələrin dayanması isə təbii ki, ən çox Rusiyaya sərfdir. ABŞ-ın, Qərbi Qarabağ məsələsinin həllinə fəal qoşulmasını şərtləndirən amillərdən biri də budur.

Xatırladaq ki, Xəzərdəki “Şahdəniz mərhələ-2" qazının 3500 km-lik kəmərlə Avropaya nəqlini nəzərdə tutan və qitənin, həmçinin, qardaş Türkiyənin Rusiyadan enerji asılılığını minimuma endirməyə hesablanmış Cənub Qaz Dəhlizi kəmərlər sisteminin 3 əsas seqmenti var: **1.** Cənub Qafqaz Boru Kəməri - CQBK *(Azərbaycan və Gürcüstan ərazisindən keçən hazırkı CQBK yeni paralel boru kəməri vasitəsilə genişləndiriləcək);* **2.** TANAP *(Trans-Anadolu Qaz Kəməri - təbii qazı Türkiyənin şərqindən qərb sərhədinə daşıyacaq);* 3. TAP (Trans-Adriatik Boru Kəməri - qazı Türkiyənin qərbindən Yunanıstan və Albaniyadan keçməklə Avropa bazarına çatdıracaq).

Ötən il TANAP-ın inşası başlayıb və sürətlə davam etdirilir, bu yaz isə TAP-ın tikintisi start götürməlidir.

❑ **Siyasət şöbəsi**

# Ölkədə ərzaq tədarükü üçün ASC yaradıldı-hökumət nəyə hazırlaşır?

## **Natiq Cəfərli:** “Türkiyə ordusunun ərzaq təminatının 90 faizi yerli fermerlərin istehsal etdiyi məhsullar hesabına ödənilir”

**Prezident İlham Əliyev 11 apreldə imzaladığı sərəncamla Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Ərzaq məhsullarının tədarükü və təchizati” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında sərəncam imzalayıb.**

Qurumun yaradılmasının məqsədi kənd təsərrüfatı məhsullarının istehsalını və emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq, dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etməkdir.

Cəmiyyətin vəzifəsi ərzaq məhsullarının istehsalçılarından və satıcılarından belə məhsulları almaq və tədarük edərək satın alan təşkilatlara təqdim etməkdir.



Kənd Təsərrüfatı Nazirliyinin verdiyi məlumatda isə deyilir ki, “Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyəti fermerlərin öz məhsullarını satmaqları üçün böyük imkan yaradacaq. Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olacaq qurum dövlət müəssisə və təşkilatlarının ərzaq məhsulları ilə mərkəzləşdirilmiş qaydada təmin olunmasını təşkil edəcək.

**İqtisadçı ekspert Natiq Cəfərli isə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, bu qurum normal fəaliyyət göstərərsə, fermerlərin rifahına və istehsalın stimullaşdırılmasına müsbət təsir göstərəcək:** “Mənim iqtisadi baxışlarıma görə, dövlət iqtisadiyyata nə qədər az müdaxilə etməsə, bir o qədər yaxşıdır. Çünki dövlətin iqtisadiyyatın bir subyekti kimi fəaliyyət göstərməsi və iqtisadiyyatı idarə etməsi pozitiv nəticələrə gətirib çıxarmır, əyintilərə, korrupsiyaya yol açır. Dövlət təcrübəsi də bunu dəfələrlə sübut edib. Sadəcə, indi verilən bu fərmanın yaxşı bir mexanizmini hazırlamaq olar ki, dövlətin ordu üçün, uşaq evləri və bağçalar üçün aldığı ərzaqlar fermerlərdən alınsın və fermerlər müqavilə əsasında satınalmalara cəlb olunsun. Onların istehsal etdikləri məhsulların dövlət tərəfindən alınması müəyyən stimul olacaq. Ancaq bir şərt vacibdir ki, bu müqavilələr ən azı 3 illik bağlanmalıdır və uzunmüddətli olmalıdır ki, fermerlər perspektivi görə bilsinlər. Qazanclarını hesablamaq şərti ilə əllərində olan vəsaiti daha çox torpaq sahəsinə yatırsınlar, digər məhsullar da becərsinlər. Ancaq bu tenderlər qeyri-şəffaf keçiriləcəksə, bu tenderlər vasitəsilə yeyintilərə yol açılacaqsa, hər il keçiriləcəksə, hər il yeyintilər təkrarlanacaqsa mən bu qurumun fəaliyyətinin effektiv olacağına inanmıram. Ən azından uzunmüddətli müqavilələr şəklində ilkin olaraq belə bir formul seçilsə və fermerlərlə müqavilələr bağlansa, dövlətin nəzarətində olan müəssisələrin ərzaq ehtiyacları bu şəkildə ödənilsə, bu müsbət nəticələrə gətirib çıxara bilər”.

**Ekspertin fikrincə, ideya olaraq bu qurumun yaradılması müsbət haldır, sadəcə, bunun mexanizmləri şəffaf şəkildə həyata keçirilməlidir:** “Ancaq bu zaman fermerlərə müəyyən mənada dəstək verə bilər. Bunun Türkiyə örnəyi var. Türkiyə ordusunun ərzaq təminatının 90 faizi yerli fermerlərin istehsal etdiyi məhsullar hesabına ödənilir. Bu da fermerlərin inkişafı üçün çox böyük dəstəkdir. Belə bir təcrübə götürüləcəksə, buna ümid etmək olar. Ancaq bu qurum da digər dövlət qurumları kimi olsa, tenderlərdə öz yaxın qohumlarının adına olan saxta şirkətləri qalib etsə, bunun heç bir effekti olmayacaq”.

**ASC-nin idarə edilməsində digər səhmdarların payına gəlincə, N.Cəfərli tenderlərin və satınalmaların real və şəffaf şəkildə həyata keçirilməsinin vacibliyini vurğuladı:** “İdarəetmədə əsas nəzarət paketi dövlətin əlində olacaq. Digər səhmdarlar olsa belə, dövlətin şəffaf işləməsi, onlara hesabat verməsi çox vacibdir. Əgər təmin olunsa, dövlət ən azı ildə bir dəfə səhmdarların yığıncağını keçirməlidir. İş adamlarına məlumat verməlidir. Digər səhmdarların olması məhz şəffaflığın təmin olunmasına müsbət təsir göstərə bilər. Ancaq bu tenderlərdə kimlərin iştirak edəcəyi və səhmlərin kimlərə satılacağı da sual altındadır. Bu proses də süni şəkildə baş verəcəksə, səhmlərin qalan 49 faizi də başqa-başqa adlarla bir nəfərin əlincə cəmləşəcəksə, onda bu qurumun hansısa yaxşı dəyişikliklərə imza atacağını gözləmək olmaz”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 80 (6401) 15 aprel 2016

# Aprel ayının mistikası - sovet işğalı, Qarabağda müharibə, terror...

**Əslində Allahın bizə bəxş etdiyi bütün zaman məfhumu, yəni günlər, aylar, illər qiymətli və dəyərlidir. Dəyərsiz və uğursuz deyə bir zaman yoxdur. Uğursuz zaman olmasa belə, digər günlərdən, aylardan seçilən daha xeyirli və bərəkətli zamanlar var. Məsələn, cümə günü digər günlərdən, Qədr gecəsi digər gecələrdən, Ramazan ayı digər aylardan daha xeyirlidir.**



Ancaq xoşagəlməz hadisələrin zaman-zaman eyni aya təsadüf etməsi insanlarda bəzən bu aya qarşı pessimizm və həmin ayın uğursuz olması düşüncəsini yaradır.

İnsanlar bu cür düşündükləri üçün baş verən bütün neqativ halların kökünü məhz həmin ayda axtarmağa başlayırlar. Azərbaycanda aprel ayında bir neçə ağır hadisələrin baş verməsi bəzi insanlarda bu ayın uğursuz ay olması düşüncəsini yaradıb. Məsələn, 1920-ci il aprelin 27-də Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayıb. Bundan başqa, 2009-cu il aprelin 30-da ADNA-da bir çox tələbələrin və müəllimlərin ölümü ilə nəticələnən terror hadisəsi baş verdi. Bu il aprelin 2-dən 4-nə qədər isə Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində atəşkəs rejimi pozuldu və çoxlu şəhid verdik. Maraqlıdır, bütün bu üzücü hadisələrin aprel ayında baş verməsi tamamilə təsadüfdür, yoxsa bu ayın xüsusi bir mistikası var?

**Öncə astroloqların məhz Qarabağ münaqişəsi ilə bağlı bu ilin əvvəlində verdikləri proqnozlara diqqət edək. Astroloq Səbuhi Rəhimli:** "Qarabağda 2015-lə müqayisədə daha böyük və uzunmüddətli döyüşlər gedəcək. Lakin hansısa ərazinin azad




olunacağı gözlənilmir". **Astroloq Firudin Qurbansoy:** "2016-cı ildə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hər hansı bir dəyişiklik olmayacaq".

Astroloqlara aprel ayının uğursuz ay olub-olmaması ilə bağlı sual verdik.

**Səbuhi Rəhimli aprel ayının daha çox Marsın təsiri altına düşdüyünü və bu nəhəng göy cisminin müharibə, ehtiras və iğtişaşlar planeti kimi səciyyələndirildiyini dedi:** "Astroloji baxımdan aprel ayı daha çox Marsın təsiri altına düşür. Qoç (21 mart-20 aprel) və Əqrəb (24 oktyabr-22 noyabr) bürclərinin himayədarı olan bu nəhəng göy cismi hələ qədimlərdən müharibə, ehtiras və iğtişaşlar planeti kimi səciyyələndirilib. Bu dövrlərdə dünya miqyasında qlobal müharibələr, məhəlli münaqişələr baş versə də, nəticəsini uzun zaman gözləmək lazım gəlir. Xatırladım ki, ABŞ və alyans qoşunlarının İraqa hücumu da məhz məlum zaman kəsiyində həyata keçirilmişdi. Gördüyünüz kimi, hələ də qeyri-müəyyənlik davam edir. Vurğulayım ki, Marsın hakim olduğu dövrlərdə təşəbbüskar olan tərəf üstünlüyü əldə saxlaya bilir. Meydan hərəkatında xalqımız bu təşəbbüskarlığı əldə saxladığı üçün sonu qələbə ilə tamamlandı. Digər hadisələrdə isə təəssüf ki, müdafiə xarakteri aldıq. Məlum 4 günlük müharibədə hücumun Azərbaycan tərəfdən həyata keçirilməsi görünməkdədir. Amma hadisənin əsl gedişini və hansı nöqtədən start götürdüyünü doğru-dürüst deyən yoxdur. Əgər doğrudan da ilk hücum bizdən olubsa, bu üstünlük davam edəcək".



**Səbuhi Rəhimli:**
"Aprel daha çox Marsın təsiri altına düşür və bu, müharibə, ehtiras, iğtişaşlar planeti kimi səciyyələnir"



**Firudin Qurbansoy:**
"Heç bir ayı uğursuz adlandırmaq olmaz"

**S.Rəhimli ilin əvvəlində verdiyi proqnozun bütün media vasitəsilə yayımlandığını dedi:** "Proqnoza gəlincə, mən ilin əvvəlində Qarabağla bağlı konkret olaraq bunları demişəm: Qarabağda 2015-lə müqayisədə daha böyük və uzunmüddətli döyüşlər gedəcək. Lakin hansısa ərazinin azad olunacağı gözlənilmir. Üstünlük bizim tərəfimizdə olacaq. Əlavə şərh də vermək istəmirəm".

**Firudin Qurbansoy isə hansısa ayı uğursuz adlandırmağın düzgün olmadığını bildirdi:** "Heç bir ayı uğursuz adlandırmaq olmaz. Sadəcə olaraq, həmin ayda bizə dost olmayan bürclər ola bilir. Hər hansısa bir ayı götürəndə 20-nə qədər bir bürcü əhatə edir, 20-dən sonra digər bürcü. Bu mənada ola bilsin ki, bürcün biri xeyirli bir məqamdır, yaxud da əksinə, zərərli məqamda ona tərəf olur. Aprel ayının Qoç və Buğa bürcünə aid olan hissələri var. Əlbəttə ki, cümhuriyyətimizin süquta uğradığı gün 27 aprel Buğa bürcünə aiddir. Əslində Azərbaycan ərazisinin çox hissəsi Əqrəb bürcünə aiddir. Oxatan bürcü də Şimali Azərbaycanın bir hissəsini əhatə edir. Amma əsas hissə, məsələn, Abşeron yarımadası və bütövlükdə Bakı Əqrəb bürcünün atındadır. Azərbaycana rəhbərlik edən şəxslər cərgəsinə baxsanız Nəriman Nərimanov, Mircəfər Bağırov, Heydər Əliyev, İlham Əliyev torpaq ünsürlü insanlardı ki, burada uzun müddət qərar tutub rəhbərlik edə biliblər. Aprel ayının əvvəlləri Qoç bürcünə aiddir. Qoç bürcü də su ünsürü olan Əqrəblə həmahəng deyil, düşməndir. Buna görə də Qoç bürcündə Azərbaycanda xoşagəlməz hadisələr baş verə bilir".

❑ **Günel MANAFLI**



# Fəal gənclərin aksiyası: dünən və bu gün



**Samir SARI**

**Bu ölkədə gənclərin toplaşıb (yaxud toplanlaşdırılıb) hardasa piket keçirməsi olayı ilk dəfə deyil. Biz belə filmlərə çox baxmışıq, hətta onların bir neçəsində iştirak da etmişik.**

Bu barədə danışanda hər şeyə rişxəndlə yanaşan yeni nəsil gənclər deyirlər, eh, sizin də günləriniz olub... Və gülürlər. Bu, bəlkə indi gülməli görünə bilər, amma o vaxt gülməli deyildi.

Məsələn, bir dəfə, gərək ki, 2003-cü il idi, Hafiz Hacıyevin rəhbərliyi ilə bir sürü gənci (indi saqqalı çallaşmış kişilər olarlar) yığıb gətirmişdilər Müsavat Partiyasının qabağına, bəzilərinin əlinə də meqafon vermişdilər. Yaramazlar ağızlarını açıb gözlərini yummuşdular, hey söyürdülər. Biz də pəncərədən baxırdıq. Söyənlər gördülər ki, elə çığırmaqları özlərinə qalır, bunlara fikir verən yoxdur, birdən ağzı-burnu dələngəvaz, sur-suyumundan hind filmlərinin mənfi obrazlarına, türk filmlərinin təcavüzçü personajlarına oxşayan bir gədə meqafonu dostunun əlindən qapıb aldı və ağzına dirəyib anqırdı: "Nə tülkü kimi qaçıb girmisiz qərargaha, çıxın cavab verin". Yanımızdakı bəzi gənclər əsəbiləşdilər, biri ağzını söyüşlə doldurub qarşı tərəfə göndərmək istədi, amma dostları onun ağzını qapatdılar. Gəncimiz ha çırpındı, xeyri olmadı, axırda buraxdılar, o da bərkdən dedi: "Ayıb olsun sizə!"

Doğrusu, bu xatirəni yaza-yaza ha fikirləşirəm ki, o gənclərin partiya qarşısına nəyə görə gəldiklərini, etirazlarına nəyin səbəb olduğunu yadıma salım. Heç nə yadıma düşmür. Amma səbəb təxminən o ola bilərdi ki, İsa Qəmbər niyə prezident olmaq istəyir, namizədliyini irəli sürür.

O ərəfədə bir-iki nəfər də vardı, bəyan etmişdilər ki, İsa Qəmbər prezidentliyə namizəd olsa, özlərini yandıracaqlar. Gerçəkdən də adamlar sözlərini tutdular, Fəvvarələr meydanında elə bir özünüyandırma aksiyası təşkil etdilər. Ancaq o vaxt onlar filmlərdə kaskadyorların geydiyi xüsusi paltardan geymişdilər ki, həm özlərini yandırmış kimi görünsünlər, həm də yanıq xəsarəti alıb ölməsinlər. Fəqət yardımçıları onları bir-iki saniyə gec söndürmüşdülər və nəticədə hər ikisi bir balaca ütülmüşdü. Sonradan onlardan biri yanğını söndürməyə məsul olan köməkçisini jurnalistlərin yanındaca danlamışdı: "Alçaq, sənin ləngliyin üzündən az qalmışdı yanım".

Bir dəfə də 7-8 il qabaq o vaxtın fəal gənclərini dəhmərləyib "Gündəlik Azərbaycan" qəzetinin qarşısına gətirmişdilər. Onlar da Eynulla Fətullayevə söyür, qışqırırdılar ki, rədd olub ölkədən getsin. Başqa zəhmətkeşlər də dəstəylə gəlirdilər, söyüb-söyüb gedirdilər. Sonra yumurta atmaq vacib oldu. Hər dəfə bir batalyon əsgərin qayğanağına bəs edəcək qədər yumurtanı redaksiyanın irilaylı şüşələrinə çırpıb gedirdilər. Onlar gedəndən sonra redaksiyaya xüsusi yuyucular çağırılırdı ki, şüşədə qalan yumurta həlməşiyini quruyub acar xaçapurisinə dönməmiş silib təmizləsinlər.

Elə günlərin birində, qəzəbli və od-alovlu gənclər gəlib redaksiyanın qabağında çığırışmağa başlayanda əməkdaşlarımızdan biri hövsələsini basa bilməyib aşağı, etiraz edənlərin yanına düşdü, dedi, qətnamənizi verin, tanış olaq. Tələbələrdən biri, Hollivud filmlərinin romantik aşiqlərinə oxşayan bir gənc üzünü ona tutaraq bərkdən "Ar olsun!" dedi, o da cavabında ona bir az ağır sözlər dedi, aralaşıb getdilər. Axşam görürük, bay, "Lider" televiziyası əməkdaşının tələbəyə dediyini verir, ardınca da deyir, bu da özünü ziyalı adlandıran adamın leksikonu. Yox, sən gəl o ziyalını itdən al, itə ver, üzünə söy, söylən, o da "ar sizin özünüzə olsun" deyəndə bunu çək, göstər və qına.

İndi bəziləri deyir ki, bu cür gənclər harada yetişdi, görəsən. Harada yetişəcək, öz xalqımızın bağrında, bağında, bağçasında yetişiblər. Belə gənclərdən min il qabaq da vardı, yüz il əvvəl də. 37-ci ildə repressiya maşınını belə gənclər sürüblər, üzə durublar, adam tutdurublar. Beləleri "odda yanmaz, suda batmaz" kateqoriyasına aiddirlər. Bütün hakimiyyətlər bu cür gənclərə ehtiyac duyur, onlardan yararlanır, onları başa çıxarır.

Sabah hakimiyyət dəyişsə və yerinə dünyanın ən demokrat, ən ədalətli, ən ideal qüvvəsi gəlsə, 3-5 aydan sonra, bilirsinizmi, nə olacaq? Həmin iqtidarın aparıcı nomenklaturasını məhz bu cür gənclər təşkil edəcək. Görə-görə gəlmişik.

**Ötən ilin ən dəhşətli hadisələrindən biri də Xətai və Binəqədidə yaşayış binalarında baş verən yanğınlar oldu. Binaların fasadına çəkilən tez alışan poliuretan üzlüyün yanması səbəbindən birinci hadisədə 50-dən çox ailə evini və əşyalarını itirdi.**

# Bakıda yanan binaların 11 aydır sönməyən tüstüsü...

## İstintaq işi niyə bu qədər uzadılır?



Binəqədi rayonunda, Azadlıq prospekti, 200 ünvanında baş verən ikinci və daha dəhşətli yanğında isə 4-ü uşaq olmaqla, 15 nəfər öldü, onlarla insan yaralandı.

Bundan sonra ölkədə genişmiqyaslı proses aparıldı. Bakıda baş alıb gedən "penoplast" təhlükəsi aradan qaldırıldı. Qısa müddətdə yüzlərlə binanın fasadı söküldü və yeniləndi. Xatırladaq ki, həmin ərəfədə I Avropa Oyunlarının keçirilməsi gündəmdə olduğundan bu məsələ həm də ölkənin imici baxımından təhlükəli hesab edildi.

Ölkə başçısının əmri ilə yaradılan komissiya yanğının baş verməsinin günahkarları ilə bağlı araşdırma aparsa da, bu gün də hadisənin əsl səbəbkarları məhkəmə qarşısına çıxarılmayıb.

Artıq aprelin 10-da Xətai rayonunda, Zığ şossesində baş verən yanğının bir ili tamam oldu, təxminən bir aydan sonra da Binəqədidəki yanğının ili başa çatacaq.

Hadisəyə görə həbs olunanlar isə birbaşa deyil, dolayısı ilə bu prosesdə məsul olanlardır. Bəziləri isə ümumiyyətlə, bu cinayətlə heç bir əlaqəsi olmayan şəxslərdir.

Xatırladaq ki, Binəqədidə baş vermiş yanğına görə 2012-2013-cü illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzov, poliuretan məmulatını istehsal edən "Qlobal Stone" MMC-nin baş direktoru Uğur Bəşirov, "Global Construction" MMC-nin sədr müavini Ələkbər Əsgərov, 2012-2013-cü illərdə Binəqədi rayon mənzil-kommunal təsərrüfat birliyinin rəisi işləmiş rayon icra hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Ədalət Rəcəbov və Binəqədi rayonu, 72 saylı mənzil-kommunal istismar sahəsinin rəisi Nizami Orucov tutuldu.

Onlardan başqa Xətai rayonunda baş verən yanğınla əlaqəli "TNH" səlahiyyətlisi Fərid Sadıqov, şirkətin direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov həbs edildi. Hazırda isə Binəqədidə və Xətaidə binalarda baş verən yanğınlarla bağlı işlər eyni icraatda birləşdiriləcək araşdırılır.

Hüquqşünaslar isə hesab edirlər ki, Binəqədidəki binaya görə həbs olunanların dairəsi genişləndirilməlidir. Çünki bu faciələrin səbəbkarları bütün rayonu poliuretan üzlüklə yeniləməyə əmr verəcək səlahiyyəti olan şəxslərdir ki, onlar hazırda azadlıqdadırlar və heç bir məsuliyyətə cəlb edilməyiblər.

İstintaq isə sonuncu dəfə 2016-cı il martın 19-dək uzadılıb. Lakin hələ iş üzrə məhkəmə baxışı olmayıb.

Bəs görəsən, proses niyə yubadılır? Hökumət bu prosesdə böyük başların getməsindənmi narahatdır?

Hadisənin araşdırılması ilə bağlı yaradılan dövlət komissiyasının sədri Abid Şərifov nə üçün ictimaiyyət qarşısına çıxıb istintaqın gedişi və yekunları ilə bağlı hesabat vermir?

Ümumiyyətlə, hər hansı cinayət prosesinə görə başladılan istintaq nə qədər davam etməlidir və neçə dəfə uzadıla bilər?

**Hüquqşünas Müzəffər Baxış "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Cinayət Prosessual Məcəlləsində təsnif olunan hər növ cinayət işinin konkret istintaq müddəti var:** "Cinayət Prosessual Məcəlləsində konkret cinayətlər ictimai təhlükəsizlik dərəcəsi baxımından təsnifləşdirilir və böyük ictimai təhlükə törətməyən, ağır və xüsusilə ağır cinayətlərə ayırd edilir. Bu təsnifata uyğun olaraq, Cinayət Prosessual Məcəlləsində həmin cinayətlər üçün konkret istintaq müddəti müəyyən edilir. Cinayəti törədən şəxslər bəllidirsə, həmin müddətlərdə istintaq işi yekunlaşmalı və məhkəməyə göndərilməlidir. Bu baxımdan mən bilmirəm ki, o işdə kimə hansı ittiham irəli sürüblər və o hansı cinayət kateqoriyasına daxildir. Böyük ictimai təhlükə törətməyən cinayətdirsə, qanunda həmin cinayətə görə, qəsdən və ehtiyatsızlıqdan törədilməsinə görə, azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulmayan və ya iki ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulan cinayətlərin istintaq müddəti 6 aydır. Yəni əgər cinayət açılıbsa və törədən bəllidirsə, o cinayət işi üzrə istintaq müddəti 6 aydan artıq uzadıla bilməz. Az ağır cinayətlər üçün bu müddət 9 aydır. Ağır cinayətlər üçün 12, xüsusilə ağır cinayətlər üçün 18 aydır. Əgər cinayəti törədən bəllidirsə, istintaq bu müddətdən artıq davam edə bilməz".

**Hüquqşünas onu da vurğuladı ki, Azərbaycanda nə Cinayət Prosessual Məcəlləsinin, nə Cinayət Məcəllənin, nə də Konstitusiyanın tələblərinə əməl olunmur, bu baxımdan istintaqdan ədalətli nəticə gözləməyə dəyməz:** "İstintaq orqanı siyasi göstərişə əsasən istədiyi qanunsuz qərarı qəbul edə bilir. Ona görə də mən sizə tam məsuliyyətlə deyirəm ki, o binaların tez alışan örtüklə üzlənməsində, yanmasında, ayrılan vəsaitlərin mənimsənilməsində məsuliyyət daşıyan konkret vəzifəli şəxslər bəllidir. Sadəcə olaraq, onlar məsuliyyətə cəlb edilmir. Bu qədər bina üzləşdirilib, lakin ortada bir dənə müqavilə yoxdur ki, bu pullar haradan gəlib, sifarişi kim verib. Məsuliyyət daşıyan konkret şəxslər cəmiyyətə bəllidir, lakin onlar məsuliyyətə cəlb olunmur. Amma mən hələ o vaxt demişdim ki, hər iki binanın yanmasına görə konkret şəxslərin cinayətə cəlb olunması ilə bağlı göstəriş verilməsə, onlar məsuliyyətə cəlb edilməyəcək. Siyasi göstəriş olmadıqda, həmin vəzifəli şəxsləri məsuliyyətə cəlb etməyə istintaqın da gücü çatmır. Siyasi göstəriş olmadığına görə həmin binaların yanmasında ciddi məsuliyyət daşımayan, heç bir günahı olmayan, MİS-də işləyən şəxslər cinayət məsuliyyətinə cəlb edilib. Ona görə də istintaq həmin şəxslərə qarşı cinayət iddialarını sübuta yetirə bilmir. Həmin şəxslərə məhkəmə tərəfindən cinayət hökmü çıxarılsa belə o hökmlər əsassızdır".

Bir daha qeyd edək ki, Binəqədidə baş verən yanğının araşdırılması ilə bağlı yaradılan komissiyaya baş nazirin birinci müavini Abid Şərifov başçılıq edirdi. Biz də prosesin nə yerdə olduğunu öyrənmək üçün Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli ilə əlaqə saxladıq. Akif Əli "Yeni Müsavat"a bildirdi ki, ölkə başçısının qərarına uyğun olaraq , hər iki yanğında ziyan çəkənlərə müvafiq kompensasiyalar ödənildi, mənzilləri təmir olundu və bütün ailələr mənzillərinə köçürüldü. Bununla da komissiyanın əsas işi yekunlaşdı. İstintaq işi isə Baş Prokurorluqda davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov isə istintaq işinin yekunları ilə bağlı ən qısa müddətdə qəzetimizə açıqlama verəcəyini bildirdi.

❑ **Nərgiz LİFTİYEVA**



## Müflis olmuş Hafiz Məmmədov 5 milyon borc pul axtarır

### "Bakıda bu məbləği tapmağım mümkün deyil, banklar kredit vermirlər"

**Azərbaycanlı iş adamı, "Hafka" kimi tanınan Hafiz Məmmədovun sahibi olduğu Fransanın "Lans" klubu iflasın astanasındadır.**

Dsport.az saytı xəbər verir ki, Fransa mətbuatının yaydığı məlumata görə, H.Məmmədov ciddi maliyyə problemləri ilə üzləşən komandadakı problemləri həll etməyə çalışsa da, klubun fəaliyyəti üçün lazım olan məbləği tapa bilməyib.

Belədə yeni sponsor axtarışlarına başlayan "Lans"ın prezidenti Jerve Martel Afrikaya gedib çıxıb. Fil Dişi Sahilindən olan iş adamı Çarlz Kader Qura klubun səhmlərini almağa yaxındır.

Omanda biznesi olan Kader Qura İngiltərə, İsveçrə və Belçikada hər hansı bir klubun sahibi ola bilərdi. Lakin Qura klubun daha öncə Fransa çempionu olması, Çempionlar Liqasında çıxış etməsi və həmçinin afrikalı futbolçuların bu komandada oynamaq imkanını nəzərə alaraq sonda "Lans"ı seçib.

Fransa mətbuatının yazdığına görə, Qura aprelin 15-nə qədər bütün işləri yekunlaşdırmaq istəyir. Lakin bunun üçün o, Hafiz Məmmədovla görüşməlidi. Yeni sponsorlar klubun prezidenti Jerve Martelə "Lans"ın bir hissədarı olmağı yox, klubun səhmlərinə tam yiyələnməyi təklif ediblər. Hafiz Məmmədov daha öncə dostluq münasibətlərində olduğu Madrid "Atletiko"sunun rəhbərlərinə "Lans"ın ortaq sahibi olmaq təklifini irəli sürüb. Lakin sonradan bu barədə danışıqlar davam etdirilməyib.

**"Lans"ın son durumu haqda haqqin.az saytına danışan H.Məmmədov bunları deyib:** "Problemlərin həlli üçün "Lans"a cəmi 5 milyon avro lazımdır. Ancaq Bakıda bu məbləği tapmağım mümkün deyil. Banklar kredit vermirlər. Mən öz mülklərimi girov qoymağa hazıram. Tezliklə klubun maliyyə ehtiyaclarının ödənilməməsi səbəbindən "Lans"ı itirə bilərik. Əgər aprelin 15-nə qədər problemi yoluna qoymasam, görünür, fransızlar məhkəmə yolu ilə klub üzərindəki haqlarımı əlimdən alacaqlar".

"Lans"ın səhmlərinin Hafiz Məmmədov tərəfindən alınmasından sonra klub Fransa idman ictimaiyyətində yenidən populyarlıq qazanıb. Komanda 2-ci liqada uğurlu çıxış edərək Fransa 1-ci liqasına vəsiqə əldə edib. Lakin daha sonra H.Məmmədovun üzləşdiyi maliyyə problemləri səbəbindən sonra komanda yenidən ikinci liqaya düşüb. Hazırda turnir cədvəlinin 6-cı pilləsində olan "Lans"ın yenidən yüksək liqaya vəsiqə qazanmaq şansı var.